27_27 IYUl-QARA.qxd 7/24/2025 9:22 PM Page 1

UNİKAL

№27 (2257) 25 iyul 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Azərbaycanda yay istirahətinin ağlasığmaz qiymətləri



Səh.7

# Elman Rüstəmov milyonluq şirkətini satdı

*Külli miqdarda vergi borcu ilə üzləşmiş "Səba" ASC-nin təsis etdiyi "Qarabağ Taxıl" MMC-nin nizamnamə kapitalı kəskin şəkildə azaldılıb. İqtisadiyyat.az xəbər verir ki, şirkətin nizamnamə kapitalı 6 371 963 manat azaldılaraq 8 972 387 müəyyən edilib. Cəmiyyətin debitor və kreditorları bu barədə xəbərdar edilib və qanunla kreditorların nizamnamə kapitalı azalan hüquqi şəxsin öhdəliklərinin xitam verilməsi və vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etmək hüquqlarının olması bildirilib. Qeyd edək ki, "Qarabağ Taxıl" MMC 2012-ci ildə "Səba"nın tək təsisçiliyi ilə yaradılıb. MMC-nin direktoru "Səba"nın qanuni təmsilçisi Baloğlanov...*

Səh.8

## "Evlərin sənədləşdirilməsi əmlak bazarına müsbət təsir göstərəcək"



*Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Unikal"a müsahibə verib. O, 100 minə yaxın vətəndaşa sənədsiz evlərini qeydiyyatdan keçirmək imkanının yaradılmasından, hansı evlərin sənədləşdirmədən kənarda qalacağından, evlərin sənədləşdirilməsinin əmlak bazarına necə təsir edəcəyindən...*

Səh.4

## Azərbaycan-ABŞ münasibətləri necə inkişaf edəcək?



*Məlum olduğu kimi, iyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib. Dövlət başçısı Forum...*

Səh.9

## İctimai nəzarətin effektiv təşkili milli maraqların qorunmasında əsas faktora çevrilib!



*İctimai və dövlət maraqlarının müdafiəsi bir toplumun inkişafında xüsusi rol oynayır. İctima və dövlət maraqlarının qorunduğu cəmiyyətlərdə həm dövlətin maraqları təmin olunur, həm də fərdlərin rifahı nəzərə alınır. Dövlət maraqlarının və ictimai və milli maraqların təmin olunması dövlətin...*

Səh.11

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:23 PM Page 2



# Dünya ulduzlarından fərqlənmədilər



***Xəbər verdiyimiz kimi, ötən gün Bakıda "Dream Fest" beynəlxalq musiqi festivalının açılışı olub.***

Axşam.az-ın məlumatına görə, sənət aləminin tanınmış simaları gecədə geyimləri ilə yarışıblar. Onlar firuzəyi xalçaya çıxarkən rəngli, fərqli libaslardan istifadə ediblər.

Xalq artisti Aygün Kazımova bej rəngli transparan geyimdən və bodidən istifadə edib. Pop kraliçanın libası qaşlarla bəzədilib. Müğənni tərzini əlvan makiyajla tamamlayıb.



Xalq artisti Zülfiyyə Xanbabayeva tərzinə sadiq qalaraq yenə qara rəngdən istifadə edib. Müğənni başına aksessuar qoyub. O, uzun qara libasla obyektivlər qarşısına keçib.



Xalq artisti Tünzalə Ağayeva isə qara və çəhrayı güllü uzun libasla firuzəyi xalçaya çıxıb. Ağayeva böyük şlyapa ilə tərzinə fərqli ab-hava qatıb.



Müğənni Roza Zərgərli isə çəhrayı uzun geyimdə obyektiv qarşısına keçib. Son günlər oxuduğu mahnı ilə qlobal trendə düşən Roza sadə saç düzümü və makiyaja üstünlük verib.



Müğənni Nigar Camal qara transparan libasla gecədə ən çox müzakirə edilən sənətçi olub. O, qara bodisini eyni rəngli tüllə tamamlayıb.



Uzun müddət sonra media qarşısına çıxan Aysel Teymurzadə isə rəngli uzun libasla görünüb. Müğənninin geyimi uzun yarıqla diqqət çəkib.



Müğənni Samirə Efendi də fərqli tərzi ilə diqqət çəkənlərdən olub. O, mahnısına uyğun olaraq Kleopatra obrazını xatırladım. Samirə ağ və qızılı rənglərdən istifadə edib.





## "Uzak şehir" izləyicilərinə şad xəbər

***"Uzak şehir"in növbəti mövsümü ilə bağlı xəbər var.***

Ekran işinin ikinci mövsümünün çəkilişləri avqustun 25-də başlayacaq.

Qeyd edək ki, serialın baş rolunu Sinem Ünsalla Ozan Akbaba paylaşır.

## Ad gününə şok qiymətə gedir

***Aparıcı Zaur Kamal ad günü məclislərinə getmək üçün 10 min manat tələb edir.***



Bu barədə o, "Həmin Zaur" verilişin bildirib: "Məni ad günlərinə dəvət edirlər. Neçə müddətdir getmirəm. Artıq özümə şərt qoymuşam. Ad günlərinizdə iştirak etməyimi istəyirsinizsə, 10 min cibimə qoyun, mən də gəlim".

## "Zeynəb Xanlarovaya görə çox narahat idim"

***Əməkdar artist Rəşad İlyasov Xalq artisti Zeynəb Xanlarovanın repertuarına müraciət edib.***

Müğənni Xanlarovanın repertuarında olan məşhur "Unuda bilmirəm" mahnısını səsləndirib. Bəstənin sözləri Zivər Ağayeva, musiqisi isə Z.Xanlarovanın özünə məxsusdur.

R.İlyasov bildirib ki, mahnını fərqli formada oxuduğu üçün çox narahat olub:

"Mahnıda dəyişikliklər etdiyim üçün narahat idim. Ona görə də düşündüm ki, Zeynəb xanımın özünə qulaq asdırım, razılığını alım. Dinlədi və çox xoşuna gəldi. Hətta dedi ki, tədbirlərdə oxu. Bu da məni daha da ruhlandırdı".



27_27 IYUl-QARA.qxd 7/24/2025 9:23 PM Page 3





# Almaniyada saxlanılan Azərbaycan vətəndaşı azad olundu

***Almaniyada Küveytin sorğusu üzrə saxlanılan Azərbaycan vətəndaşı azad edilib.***

"Unikal" xəbər verir ki, bu barədə tanınmış vəkil Muxtar Mustafayev məlumat yayıb. O qeyd edib ki, Azərbaycan dövləti milli mənsubiyyətindən asılı olmayaraq öz vətəndaşlarını nəinki Rusiyada, Almaniyada belə müdafiə edir: "Üç aya yaxındır ki, kolleqam Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Elçin Usubla ərəb mənşəli Azərbaycan Respublikası vətəndaşı Abu Nahleh Xaled Abdel Hadinin Almaniya Federativ Respublikasında həbs edilərək, Küveyt dövlətinə ekstradisiyasının qarşısının alınması ilə məşğul idik.

Abu Nahleh Xaled Frankfurt hava limanından keçməklə səfər edən zaman Küveyt Dövlətinin elan etdiyi beynəlxalq axtarışa əsasən saxlanılmışdı və onun həmin dövlətə ekstradisiya edilməsi məsələsinə baxılırdı.

Abu Nahleh Xaled Azərbaycan Respublikasının vətəndaşı olmaqla yanaşı həm də İordaniya Krallığının da vətəndaşıdır. Ona qarşı Küveyt dövlətində irəli sürülmüş əsassız ittihamları sübuta yetirilməyən hesab etmiş həmin dövlətin birinci və apellyasiya instansiya məhkəmələri ona bəraət versə də, Küveytin Ali məhkəməsi Abu Nahleh Xaledin məhkum edilməsinə dair qərar qəbul etmişdi. Bu qərarlar Abu Nahleh Xaledin iştirakı təmin edilmədən qəbul edilmişdi. Eyni zamanda ərazi yurisdiksiyası kobud surətdə pozulmuşdu. Alman qanunvericiliyinə gözəl bələd olan kolleqam Elçin Usub tərəfindən Almaniya Federativ Respublikasının vəkilləri Dr. Yannic Hübner və Manuel Operhalsky müdafiəyə cəlb edildi".

Vəkilin sözlərinə görə, Azərbaycan Respublikasının Xarici İşlər və Ədliyyə nazirlikləri bu işdə ciddi dəstək olublar: "Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyi tərəfindən vətəndaşımızın konsul müdafiəsi təmin edildi, Ədliyyə nazirliyi tərəfindən isə hazırkı işlə bağlı sorğularımıza əsasən bütün zəruri cavablar, sənədlər operativ surətdə təqdim edildi.

Abu Nahleh Xaledin həbs edilməsinin əsassızlığı və Küveyt dövlətinə verilməsinin Azərbaycan Respublikasının və Almaniya Federativ Respublikasının ratifikasiya etdiyi "Ekstradisiya haqqında" Avropa Konvensiyasının tələblərinə əsasən mümkünsüz olmasına dair tərəfimizdən ətraflı rəy tərtib edilərək, təqdim edildi.

Uzun sürən mübarizəmiz uğurla bitdi, Almaniya Federativ Respublikasının Frankfurt Mayn əyalətinin Yuxarı prokurorluğu tərəfindən Abu Nahleh Xaledin ekstradisiyası üçün əsasların olmadığı səbəbindən onun dərhal azad edilməsi barədə 22 iyul 2025-ci il tarixdə qərar qəbul edilib".

# Elman Rüstəmov milyonluq şirkətini satdı

## Sabiq baş bankirin biznesinə böyük təhlükə... - Külli miqdarda vergi borcu var!

***Külli miqdarda vergi borcu ilə üzləşmiş "Səba" ASC-nin təsis etdiyi "Qarabağ Taxıl" MMC-nin nizamnamə kapitalı kəskin şəkildə azaldılıb.***

İqtisadiyyat.az xəbər verir ki, şirkətin nizamnamə kapitalı 6 371 963 manat azaldılaraq 8 972 387 müəyyən edilib.

Cəmiyyətin debitor və kreditorları bu barədə xəbərdar edilib və qanunla kreditorların nizamnamə kapitalı azalan hüquqi şəxsin öhdəliklərinin xitam verilməsini və vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etmək hüquqlarının olması bildirilib.

Qeyd edək ki, "Qarabağ Taxıl" MMC 2012-ci ildə "Səba"nın tək təsisçiliyi ilə yaradılıb. MMC-nin direktoru "Səba"nın qanuni təmsilçisi Baloğlanov Vüqar Samir oğludur. Bir müddət əvvəl "Səba" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçirilib və yığıncaqda "Səba"nın tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət olan "Qarabağ Taxıl" MMC-nin mülkiyyətində olan əmlakların və hüquqların satılması barədə qərar qəbul olunub.

Məlumat üçün bildirək ki, bir müddətdir "Səba"nın dövlət qarşısında külli miqdarda vergi borcu yaranıb və hazırda bu borcun miqdarı 448 754,46 manat təşkil edir.

Xatırladaq ki, "Səba"nın aktivləri Hidayət Quliyev (37,5%), Natiq Quliyev (37,5%) və Azərbaycan İnvestisiya Holdinqinə (25%) məxsusdu. Onların Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun xalası oğlanları olduğu bildirilir. Elə ona görə də şirkətin qeyri-rəsmi sahibi sabiq baş bankir göstərilir.

"Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyevin qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə etdikləri bildirilir. Bura Rüstəmova aid bəzi bank və şirkətlərlə yanaşı, maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair daxildir.

Qeyd edək ki, ötən ilin payızında "Səba" ASC-nın aktivlərinin "Chicken Pro." MMC şirkəti tərəfindən alındığı xəbəri yayılmışdı. Həmin vaxt deyilirdi ki, "Chicken Pro." MMC şirkəti "Səba" ASC-nin törəmə şirkətidir, satışa məhz "Səba"-nın səhmlərinin çıxarıldığını ehtimal etmək mümkündür.

Həmçinin, bir neçə ay öncə Elman Rüstəmovun Qax rayonundakı əmlaklarını da satışa çıxardığı barədə məlumat yayılmışdı. Bu barədə "Azpolitika"ya adıçəkilən rayondan daxil olan məlumatda qeyd olunurdu ki, keçmiş baş bankirə məxsus iri torpaq sahələri, villalar, obyektlər satışa qoyulub. "Keçmiş bankirin əmlakını satışa çıxarması yeni xəbər deyil, o, digər sahələrdəki investisiyalarına da "əl gəzdirir". Elman Rüstəmovun biznes imperiyasının tərkib hissəsi kimi təqdim edilən "Səba" ASC-də ciddi maliyyə problemləri yarandığı bildirilirdi. Qeyd olunur ki, sirkətin səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salınıb. Belə ki, İdarə Heyəti qərarında yığıncağın gündəliyinə törəmə şirkətlərdəki "Səba" ASC-yə məxsus payların satılması da daxil edilib" - məlumatda vurğulanırdı.

Bütün bunlar Mərkəzi Bankın keçmiş rəhbərinin biznesində ciddi problemlər olduğunu bir daha təsdiqləyir. Belə görünür ki, Elman Rüstəmovun külli miqdarda vergi borcu onu çıxılmaz vəziyyətdə qoyub və o, həmin vəziyyətdən çıxmaq üçün müxtəlif yollara baş vursa da, aylardan bəridir sabiq baş bankirin cəhdləri nəticəsiz qalmaqdadır.

Onu da deyək ki, Rüstəmovun adı bu yaxınlarda Yasamal Rayon Məhkəməsində araşdırılan 5 milyon manatlıq kredit qalmaqalı ilə də gündəmə gəlmişdi. Bildirilirdi ki, bu qalmaqal Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmov üçün ciddi problemlər yarada bilər. Onun şəriki, hazırda həbsdə olan Azad Nağıyevin məktubunda qalmaqalın təfərrüatları açıqlanıb və Elman Rüstəmov işin əsas fiquru kimi təqdim edilib. Məktubun mətnini musavat.com saytı yaymışdı və orada yazılanlardan belə aydın olurdu ki, Azad Nağıyev məktubu azadlıqda olarkən imzalayıb.

Elman Rüstəmovun şəriki yazırdı ki, 1999-cu ildən etibarən Bakı şəhərində "Super İnşaat" MTK-nı təsis edərək tikinti fəaliyyəti ilə məşğul olub. 2004-cü ildə həmin vaxt Mərkəzi Bankın sədri olan Elman Rüstəmov tərəfindən ona ortaqlıq təklif olunub: "Elman Rüstəmov bu məqsədlə müxtəlif vaxtlarda bizə 3 milyon 900 min ABŞ dolları kredit ayırmaq təklif etmişdi. Biz də öz növbəmizdə Elman Rüstəmovun təklifini qəbul edib, onunla birgə işləməyə başladıq. Birlikdə Bakı şəhəri, Hüseyn Cavid prospektində 3 yaşayış binası inşa etdik. Elman Rüstəmovla razılaşdığımız qaydada kreditlər tərəfimizdən hissə-hissə ödənilirdi. Bütün xərclər çıxıldıqdan sonra ikimizə 3 milyon 200 min ABŞ dolları gəlir qaldı. Həmin məbləğ aramızda bərabər bölündü.



Bundan əlavə, Elman Rüstəmov bizdən 3 milyon 100 min ABŞ dolları məbləğini və digər şirkətimiz olan "Aqana Servis" MMC-nin adına inşa edilmiş yaşayış binasından 2 milyon manatlıq mənzil sahəsi aldı. Beləliklə, Elman Rüstəmov məndən cəmi 3 milyon 100 min ABŞ dolları və 2 milyon manatlıq mənzil sahəsi aldı".

Azad Nağıyev yazır ki, Elman Rüstəmov ondan aldığı pulları qaytarmaq məqsədilə 2013-cü ildə bizə Mərkəzi Bankın hesabından 5 milyon manat kredit ayırıb. Həmin kreditlərin 1 milyon 500 min manat hissəsini xalası oğlu Rəşadın başqa banka olan borcunu ödəyib: "Yerdə qalan məbləğin 3 milyon 500 min manat hissəsini bizə girov müqabilində versə də, həmin məbləği də onun göstərişi ilə hissə-hissə müxtəlif şəxslərə və dediyi yerlərə vermişik. Hazırda sözügedən kreditlə bağlı bizə qarşı Yasamal Rayon Məhkəməsində iddia qaldırılıb. Elman Rüstəmova dəfələrlə bizim adımıza yazdığı həmin kreditlərin bağlanmasını, mülkiyyət hüququ əsasında həyat yoldaşıma və Vahid Əliyevə məxsus qeyri-yaşayış sahələrinin girovdan azad edlməsini xahiş etsəm də, xahişlərim heç bir nəticə verməyib. Hesab edirəm ki, Elman Rüstəmov bizim etibarımızdan sui-istifadə etməklə, bizim adımıza yazdırdığı kreditləri öz məqsədləri, habelə xalası oğlunun kreditlərini bağlamaq üçün istifadə etməsinə baxmayaraq, həmin kreditlər bizdən, məndən tələb edilir. Bu da bizə və ailəmizə böyük maddi ziyana səbəb olub. Bir neçə dəfə Elman Rüstəmov ilə şəxsən görüşmək istəsəm də, o, hər dəfə müxtəlif bəhanələrlə mənimlə görüşdən imtina edir".

Bir sözlə, Mərkəzi Bankın rəhbəri postundan uzaqlaşdırılmasının ardınca Elman müəllim üçün heç bir baxımdan işlər qaydasında getmir və onun başı qalmaqallardan, problemlərdən açılmır, bu prosesin haracan davam edəcəyini və nə ilə nəticələnəcəyini isə zaman göstərəcək.

***Sənan Mirzə***

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 4



# Azərbaycan-ABŞ münasibətləri necə inkişaf edəcək?

## Trampın İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışına xüsusi diqqəti...



***Məlum olduğu kimi, iyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib. Dövlət başçısı Forum iştirakçılarının suallarını cavablandırıb və vacib məsələlərə toxunub.***

ABŞ prezidenti Donald Tramp isə Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə keçirilən "Qlobal Şuşa Media Forumu - 2025"dəki çıxışını özünün rəsmi "Truth Social" hesabında paylaşıb.

İlham Əliyev forumda bildirib: "Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim; onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı. O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür.

Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq. O, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun".

Bəs görəsən, bundan sonra Azərbaycan-ABŞ münasibətləri necə inkişaf edə bilər?

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib ki, Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda bütün suallar üzrə cavabları böyük maraq doğurdu:

"Dövlət başçısı həm daxili, həm də xarici məsələlərə toxundu. Azərbaycan liderinin məsələlərə yanaşması obyektiv, eyni zamanda beynəlxalq hüquq normalarına uyğun idi. Prezident İlham Əliyev verilən sualların birinə cavabında ABŞ-dakı prezident seçkiləri ilə bağlı fikirlərini bölüşdü. Donald Trampın hakimiyyəti dövründə ölkəsinin müharibələrdə iştirak etmədiyini, onun fikirlərinin real, praqmatik olduğunu və ölkəsinin maraqlarına cavab verdiyini söylədi. Bu, həqiqətən də belədir.

Bu, təkcə ABŞ-nin Azərbaycanla münasibətlərinə aid deyil, dünya siyasətində oynadığı rolunun real qiymətidir. Məsələ diqqəti cəlb etdi. ABŞ Prezidenti bu çıxışı özünün sosial şəbəkəsində paylaşdı", - deyə o əlavə edib.

Millət vəkili qeyd edib ki, Azərbaycanın mövqeyi beynəlxalq aləmdə diqqətlə öyrənilir: "Azərbaycan liderinin bu və ya digər məsələyə dair fikirləri eyni zamanda hörmətlə qarşılanır. Donald Tramp ABŞ Prezidenti seçildikdən sonra onsuz da Azərbaycan-ABŞ münasibətlərində ciddi dəyişikliklər baş verməyə başladı.

ABŞ-nin əvvəlki administrasiyası Azərbaycana qarşı qeyri-obyektivliyi, bir sıra hallarda isə daxili işlərimizə qarışmaq mövqeyi ilə seçilirdi. Azərbaycan vaxtaşırı öz etirazını bildirsə də, proses davam edirdi. Hazırda isə biz bunu müşahidə etmirik.

Cənab Trampın bu addımı onu göstərir ki, ABŞ Azərbaycanın regionda və dünyada nüfuzuna xüsusi qiymət verir. Ərazicə və əhalicə kiçik olsa da, Azərbaycanın siyasətdə oynadığı rolunu kifayət qədər ciddi qəbul edir. Hesab edirəm ki, bundan sonra da, münasibətlərimiz hər iki tərəfin maraqlarına uyğun olaraq sistemli şəkildə yüksəlməyə davam edəcək".

***Murad İbrahimli***

# Nazir müavini "Maarifçi"lərlə görüşdü

***Elm və təhsil nazirinin müavini Firudin Qurbanov "Maarifçi" tələbə-məzun təcrübə proqramının yeni iştirakçıları ilə görüşüb.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib. Bu il III dəfə baş tutan "Maarifçi" tələbə-məzun təcrübə proqramı çərçivəsində iştirakçılarla görüşən Firudin Qurbanov onlara yaradılan imkanlardan doğru faydalanmağı, hər zaman öz üzərlərində çalışaraq müasir dünyanın çağırışlarına uyğun bilik və bacarıqlara yiyələnməyi tövsiyə edib.

Nazir müavini proqram iştirakçılarının hazırda qazandıqları təcrübənin onların peşəkar kadr kimi formalaşmalarında mühüm rol oynadığını xüsusi vurğulayıb. Gənclərə sevdiyi işlərlə məşğul olmağı tövsiyə edən Firudin Qurbanov "Maarifçi" proqramının iştirakçılarının suallarını cavablandırıb, onları sağlam həyat tərzi keçirməyə, asudə vaxtlarının səmərəli təşkili barədə düşünməyə çağırıb.

Görüşdə çıxış edən "Maarifçi"lər gənclərə belə bir fürsət yaradıldığı üçün təşəkkürlərini ifadə ediblər, həmçinin proqramın onlar üçün yaratdığı imkanlardan bəhs ediblər.



Qeyd edək ki, 4 ay davam edəcək proqram çərçivəsində seçilmiş iştirakçılar Elm və Təhsil Nazirliyi, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində təcrübə keçəcəklər.

Proqramın məqsədi tələbə və məzunlara təcrübə imkanı yaratmaq, onların bilik və bacarıqlarını artırmaq, nəzəri biliklərini real iş mühitində tətbiq etmək və gənclərə peşəkar vərdişlər qazandırmaqdır.

# Azərbaycanda rəqəmsal manat nə zaman reallaşacaq?

***"Ötən gün Mərkəzi Bankın sədri Taleh Kazımovun ekspertlərlə görüşündə diqqət yetiridiym məsələlərdən biri də virtual aktivlərlə (kriptovalyuta, tokenlər, NFT və s.) kriptovalyuta bazarının tənzimlənməsilə bağlı olub. AMB sədri virtual aktivlərlə bağlı qanunun hazırlanmaqda olduğunu və qısa müddətdə başa çatdırılacağını bildirdi".***

"Unikal" xəbər verir ki, bunu İKT üzrə ekspert Osman Gündüz sosial şəbəkə hesabında yazıb. O bildirib ki, bu qanun ölkəmizdə kriptovalyuta mühitini xeyli dəyişəcək.

"Məhz bu qanun kripto birjaların, bu tip platformaların qeydiyyatı və xarici kripto-platformaların Azərbaycanda fəaliyyəti üçün mühitin yaradılması, kriptoların rəsmi pul vahidi və ya ödəniş vasitəsi kimi tanınması, kriptovalyutalardan əldə olunan gəlirlərin vergiyə cəlb edilməsi və s. bu tip məsələləri tənzimləyəcək. MDB məkanında Rusiyada, Qazaxıstanda, Özbəkistanda və Belarusda bu sektorun tənzimlənməsilə bağlı qanunlar və hüquqi normalar mövcuddur. Taleh müəllimin dediyindən belə anladım ki, Mərkəzi Bank rəqəmsal manata daha fərqli və daha konservativ yanaşır.Yəni, rəqəmsal manatın dövriyyəyə buraxılmasına virtual aktivlər çərçivəsində deyil, daha məhdud çərçivədə baxılır. Hazırda Mərkəzi Bank digər ölkələrdə rəqəmsal milli valyutalarla bağlı mövcud təcrübənin araşdırılması və öyrənilməsilə məşğuldur. Gələn il rəqəmsal manatla bağlı işlərin daha da sürətlənəcəyi gözlənilir".

# Daha 29 ailə Həsənriz kəndinə köçüb

***İyulun 24-də doğma yurduna yola salınan köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə çatıb.***

"Unikal" xəbər verir ki, bu mərhələdə köçürülən 114 nəfərdən ibarət 29 ailəyə mənzillərin açarları təqdim edilib. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin rəsmiləri iştirak ediblər. Həsənriz kəndində daimi yaşayış üçün köçürülən ailələrə bərpa edilmiş fərdi yaşayış evlərində mənzillər verilib. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.

# "Bu, Azərbaycanla münasibətləri normallaşdıracaq" - Rusiya XİN

***Moskva Bakı ilə münasibətlərin tezliklə normallaşmasına nail olmağa ümid edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. Onun sözlərinə görə, Azərbaycanda olan Rusiya vətəndaşlarının azad edilməsi bu prosesə töhfə verəcək: "İndi Azərbaycanla ikitərəfli münasibətlərdə, həqiqətən, yumşaq desək, çətin mərhələdir. Rusiya bu prosesi sürükləməməyə çalışır. Biz tezliklə nizamlanmaya ümid edirik. Bu yolda mühüm addım Azərbaycanda saxlanılan Rusiya vətəndaşlarının azad edilməsi olacaq".

O, Azərbaycanın Moskvadakı səfiri Rəhman Mustafayevə mesaj göndərərək Rusiya vətəndaşlarının və jurnalistlərin dərhal azad edilməsini tələb etdiyini açıqlayıb: "Biz bu məsələ ilə bağlı, o cümlədən hüquq-mühafizə orqanları ilə bağlı Azərbaycan tərəfi ilə əlaqələrimizi davam etdirəcəyik".

***Ağarza Elçinoğlu***

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 5



## İlham Əliyev Şavkat Mirziyoyevi təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev iyulun 24-də özbəkistanlı həmkarı Şavkat Mirziyoyevə zəng edib.***

”Unikal” xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Dövlət başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulayıb.

Özbəkistan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Azərbaycan və Özbəkistan prezidentləri yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunublar. Bu xüsusda iyulun əvvəlində Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri çərçivəsində aparılan səmərəli müzakirələr və imzalanan sənədlər, həmçinin Özbəkistan Prezidentinin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən Zirvə toplantısında iştirakı qeyd edilib.

Dövlət başçıları Azərbaycanla Özbəkistan arasında qardaşlıq, dostluq və müttəfiqlik əlaqələrinin gələcəkdə də bütün sahələrdə uğurlu inkişafına əminliklərini bildirib, ikitərəfli gündəliklə bağlı əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

## Hakan Fidan “IDEF 2025”də Azərbaycan stendi ilə tanış olub



***Türkiyənin xarici işlər naziri Hakan Fidan İstanbulda təşkil edilən 17-ci Beynəlxalq Müdafiə Sənayesi Sərgisini (“IDEF 2025”) ziyarət edib.***

”Unikal” xəbər verir ki, İstanbul Sərgi Mərkəzində stendlərə baxış keçirən Hakan Fidan Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayevlə birlikdə Azərbaycan pavilyonu ilə də tanış olub.

## Hərbi ekspertə Müdafiə Nazirliyində vəzifə verildi

***Tanınmış hərbi ekspert Azər Bayramov Müdafiə Nazirliyində vəzifəyə təyin olunub.***

“Unikal” “qafqazinfo”ya istinadən xəbər verir ki, ehtiyatda olan kapitan A.Bayramov nazirliyin Multimedia bölməsinin rəisi vəzifəsinə gətirilib.

Qeyd edək ki, A.Bayramov hərbi mövzular üzrə çıxışları ilə tanınır.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



## Dövlət sərhədini pozmağa cəhd göstərən şəxs saxlanıldı

***Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının ”Lənkəran” sərhəd dəstəsinin xidməti ərazisində İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən şəxs saxlanılıb.***

“Unikal” xəbər verir ki, bu barədə DSX məlumat yayıb.

Qeyd edilib ki, saxlanılan şəxs İraq vətəndaşı Savfan Məhəmməd Əsəddir. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# İlham Əliyev Vladimir Putinə başsağlığı verdi

***Azərbaycan Prezidenti İlham Əliyev təyyarə qəzasında çoxsaylı insanın həlak olması ilə bağlı Rusiya Prezidenti Vladimir Putinə başsağlığı verib.***

”Unikal”ın məlumatına görə, başsağlığında deyilir:

“Hörmətli Vladimir Vladimiroviç,

Amur vilayətində “An-24” sərnişin təyyarəsinin qəzaya



uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni dərindən kədərləndirdi.

Bu faciə ilə əlaqədar şəxsən öz adımdan və Azərbaycan xalqı adından Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm”.

Qeyd edək ki, bu gün Rusiyanın Amur bölgəsində içərisində 49 nəfərin olduğu “An-24” təyyarəsi qəzaya uğrayıb. Qəza nəticəsində 49 nəferin hamısı həlak olub.

# Uşaqlar arasında yayılan xəstəlik nədir? - Nazirlik açıqladı

***Səhiyyə Nazirliyi uşaqlar arasında yayılan xəstəliklərə aydınlıq gətirib.***

Nazirlikdən bildirilib ki, hazırda ölkə üzrə yoluxucu xəstəliklərlə bağlı səhiyyə müəssisələrinə edilən müraciətlərin sayında nəzərəçarpacaq artım qeydə alınmayıb.

Bildirilib ki, uşaqlarda rast gəlinən hallar əsasən, yüngül simptomlarla müşayiət olunur və qısa müddətdə sağalma ilə nəticələnir: “Dövlət Sanitariya Nəzarəti müəssisələri epidemioloji durumu daim nəzarətdə saxlayır və zəruri profilaktik tədbirlər görülür. Valideynlərdən xahiş olunur ki, uşaqların gigiyenası, qidalanması, uzun müddət qızmar günəş altında qalmasına və immun sistemini dəstəkləyən rejimlərinə diqqət yetirsinlər”.

Qeyd edək ki, bir müddətdir uşaqlar arasında yüksək qız-




dırma, halsızlıq, iştahasızlıq müşahidə olunur.

# Birinci yarımildə mina qurbanlarının sayı açıqlandı

***Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2025-ci ilin birinci yarımilində mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 18 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb.***

”Unikal” xəbər verir ki, bu barədə Baş prokuror Kamran




Əliyev iyulun 24-də videokonfrans rejimində keçirilən geniş kollegiya iclasında məlumat verib.

Bildirilib ki, 2020-ci ilin noyabr ayından hazırkı vaxtadək ümumilikdə 400 nəfər bu terrorun qurbanı olub, onlardan 70-i həlak olub, 330-u müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

# Bakı-Naxçıvan reysi üzrə sərnişin daşımaları davam edir

***Bakı Beynəlxalq Avtovağzal Kompleksindən Bakı-Naxçıvan reysi üzrə sərnişin daşımaları davam edir.***

”Unikal” xəbər verir ki, Vətəndaşlar biletləri BBAK-ın kassalarından və Biletim.az portalı üzərindən onlayn şəkildə əldə edə bilərlər.

Təyin olunmuş qrafik üzrə reyslər haqqında məlumatları Biletim.az portalının 1181 və BBAK-ın 1414 nömrəli telefonlarına zəng etməklə əldə etmək mümkündür.




# Lerikdə yanğına səbəb olan şəxslər saxlanıldı

***Lerikdə yanğına səbəb olan şəxslər saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ”Unikal”a verilən xəbərə görə, iyulun 24-də Lerik rayonunun Tikəbənd və Durğan kəndləri ərazisində əkin və otlaq sahələrində baş vermiş yanğın hadisələri ilə bağlı polis əməkdaşları tərəfindən aparılmış araşdırmalar nəticəsində hadisələrin ehtiyatsızlıqdan törədildiyi müəyyən edilib.

Tikəbənd kəndi ərazisində kənd sakini olan azyaşlının otlaq sahədə ocaq yandırması



nəticəsində 2 hektar ərazidə kol-kos yanıb. Azyaşlı valideyni ilə birlikdə polis orqanına dəvət olunmaqla profilaktik söhbətlər aparılıb.

Durğun kəndində isə kənd sakini 46 yaşlı Malik Mahmudov siqaret kötüyünü əkin sahəsinə atdığı üçün 4 hektar ərazidə kol-kos yanıb. Malik Mahmudov barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunub.

Qeyd edək ki, hər iki şəxs yanğın baş verdikdən sonra aidiyyəti üzrə məlumat verməunder ərazidən uzaqlaşıblar.

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 6



# Doktorant və tələbələrə verilən təqaüdlər artırılıb - Sərəncam



***Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılıb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncamla təqaüdlərin məbləğləri sentyabrın 1-dən aşağıdakı kimi müəyyən edilib:

- doktorantura səviyyəsi üzrə:
- elmlər doktoru hazırlığı üzrə doktorantlara - 450 manat;
- fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 300 manat;
- ali təhsil müəssisələrində:
- magistratura səviyyəsi üzrə:
- akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 240 manat;
- akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 180 manat;
- akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 120 (yüz iyirmi) manat;
- bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə:
- akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 200 manat;
- akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 160 manat;
- akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 110 manat;
- orta ixtisas təhsili müəssisələrində:
- akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 110 manat;
- akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 90 manat;
- akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 70 manat;
- peşə təhsili müəssisələrində:
- akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91-100 bal) olan tələbələrə - 110 manat;
- akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71-100 bal) olan tələbələrə - 90 manat;
- akademik göstəriciləri "3"-"5" (yüksək texniki peşə təhsili səviyyəsində 51-100 bal) olan tələbələrə - 70 manat.

# Kamran Əliyev prokurorlara tapşırıqlar verdi

***İyulun 24-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə videokonfrans rejimində Azərbaycan Respublikasının Prokurorluğu orqanları tərəfindən 2025-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.***

"Unikal" xəbər verir ki, giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü, bunun da nəticəsində qeydə alınan cinayətlərin sayında əhəmiyyətli azalmanın olduğunu bildirib.



Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 17049 cinayət qeydə alınmaqla onların 90,2 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 7477 cinayət işinin istintaqı tamamlanmışdır ki, onlardan 536-ı prokurorluq orqanlarında istintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 340, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 5839 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri və tamamlanmış araşdırma materialları üzrə ümumilikdə 55 milyon 783 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 37,7 faizinin, yəni 21 milyon 26 min manat hissəsinin ödənilməsinə nail olunmuş, habelə 13 milyon 788 min manat məbləğində əmlak üzərinə həbs qoyulmuşdur.

Hesabat dövründə ölkə rəhbərinin siyasi fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri olan korrupsiyaya və rüşvətxorluğa qarşı barışmaz mübarizə xətti əvvəlki illərdə olduğu kimi ardıcıl şəkildə davam etdirilmişdir.

Hesabat dövründə bütün instansiya məhkəmələri üzrə 11.170 şəxs barəsində 10.046 iş üzrə dövlət ittihamının müdafiəsi təmin olunmuş, prokurorluq orqanları tərəfindən 658 apellyasiya və 198 kassasiya protestləri verilmiş, 441 apellyasiya protesti və 49 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin yuxarı instansiya məhkəmələri tərəfindən aradan qaldırılması təmin olunmuşdur.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2025-ci ilin birinci yarımilində mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 18 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırki vaxtadək isə ümumilikdə 400 şəxs bu terrorun qurbanı olmuş, onlardan 70 nəfəri həlak olmuş, 330 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Cari ilin birinci yarımilində prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlər nəticəsində 42 təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.



## ANAMA Qarabağda olan meşə yanğınları ilə bağlı müraciət etdi

***Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə baş verən yanğınlarla bağlı vətəndaşlara çağırış edib.***

"Unikal" ANAMA-ya istinadən xəbər verir ki, müraciətdə deyilir: "İşğaldan azad edilmiş ərazilərdə son günlərdə mövsümlə əlaqədar olaraq havaların isti və quraq keçməsi nəticəsində meşə və otlaq sahələrində yanğın hadisələrinin artmasına şahid oluruq. Azad edilmiş ərazilərə vətəndaşların istirahət və ziyarət xarakterli səfərlərinin intensivləşməsi və qayıdış prosesində iştirak edən sakinlərin sayının artması müşahidə olunur. Bu səbəbdən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi vətəndaşlara çağırış edərək bildirir ki, işğaldan azad olunmuş ərazilərdə olarkən odla davranış qaydalarına ciddi riayət etsinlər! Açıq alovdan istifadə zamanı ehtiyatlı davransınlar! Siqaret kötüklərini yerə atmaqdan çəkinsinlər!

Baş verə biləcək genişmiqyaslı yanğın hadisəsi zamanı həmin ərazilərdə atılıb qalan mina və digər partlayıcı sursatlar hərarətin təsirindən işə düşə və yaxınlıqda olan hər hansı bir şəxs və ya şəxslərə ciddi ziyan vura bilər".

Qeyd edilib ki, Beynəlxalq Minatəmizləmə Standartlarına əsasən süni maneələr və istehkamlar, eləcə də təbii olan bitki örtüyünün heç bir resurslarla təmizlənməsi mümkün olmayan ərazilərdə yandırma fəaliyyəti kimi prosedur mövcuddur, lakin ANAMA tərəfindən bu kimi fəaliyyət icra edilmir: "İşğaldan azad edilmiş ərazilərdə yanğın və ya mina təhlükəsi halları ilə qarşılaşdıqda dərhal 805, 102 və ya 112 nömrələrinə müraciət etməyiniz tövsiyə olunur. Özümüzü, yaxınlarımızı, təbiətimizi və vətən torpağını birgə qoruyaq!".

## Asəf Hacıyev Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilib



***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının baş katibi, akademik Asəf Hacıyev Gürcüstan Milli Elmlər Akademiyasının 23iyul 2025-ci il tarixli qərarı ilə xarici üzvü seçilib.***

"Unikal" xəbər verir ki, dünya şöhrətli riyaziyyatçı alim A.Hacıyev bu ada Azərbaycan və Gürcüstan elmi əlaqələrinin inkişafındakı müstəsna xidmətlərinə, riyaziyyat elminin inkişafına bəxş etdiyi mühüm töhfələrə görəlayiq görülüb. Üzvlük diplomu elmi qurumun genişləndirilmiş iclasında təqdim olunacaq.

Qeyd edək ki, A.Hacıyev 2005-ci ildə Ümumdünya Elmlər Akademiyasının, 2008-ci ildə Monqolustan Milli Elmlər Akademiyasının, 2016-cı ildə Moldova Elmlər Akademiyasının və 2011-ci ildə Çinin Çenqdu Universitetinin Fəxri professoru, 1988-ci ildə Bernulli adına Ehtimal və Riyazi Statistika Ümumdünya Cəmiyyətinin, 2005-ci ildə isə Beynəlxalq Statistika İnstitutunun üzvü seçilib.



# Azərbaycan və Somali XİN başçıları geniştərkibli görüş keçiriblər

***24 iyul 2025-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə görüşüb.***

Bu barədə "Unikal"a XİN-in Mətbuat xidmətindən məlumat verilib. Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan və Somali arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub. Son bir neçə il ərzində ölkələrimiz arasında təmasların intensivləşməsi, qarşılıqlı səfərlərin sayının artmasının məmnunluq doğurduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov Azərbaycan və Somali arasında əməkdaşlığın siyasi, iqtisadi, humanitar və digər sahələrdə daha da dərinləşdirilməsi üçün mövcud potensialdan istifadə olunmasının vacibliyini vurğulayıb. Kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğu bildirilib. Somali nümayəndə heyətinin ADEX sərgisində iştirakı xatırlanıb, müdafiə sənayesi sahəsində geniş əməkdaşlıq perspektivləri olduğu qeyd edilib.

Həmçinin, bu ilin fevral ayında Azərbaycan hökumət missiyasının Somaliyə səfəri və bu çərçivədə Xarici İşlər Nazirlikləri arasında ilk siyasi məsləhətləşmələrin keçirilməsinin iki ölkə arasında əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinə və yeni təşəbbüslərin formalaşdırılmasına zəmin yaratdığı qeyd olunub.

Görüşdə, Azərbaycan və Somali arasında ikitərəfli çərçivədəki münasibətlərlə yanaşı, çoxtərəfli beynəlxalq və regional platformalarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanıb. Bu çərçivədə, Somalinin 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib və gələcəkdə də qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin davam etdiriləcəyinə əminlik ifadə olunub. Ölkəmizin 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə ev sahibliyi və təşkilata sədrliyi dönəmində ölkələrimiz arasında geniş əməkdaşlıq perspektivlərinin olduğu qeyd edilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün yekununda nazirlər birgə mətbuat konfransında çıxış ediblər.

# "Evlərin sənədləşdirilməsi əmlak bazarına müsbət təsir göstərəcək"

## Elnur Fərzəliyev: "Qiymət artımları ona görə baş verir ki, satılan evlərin böyük hissəsi müxtəlif növ kredit şərtləri ilə satılan əmlaklardır"



***Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Unikal"a müsahibə verib. O, 100 minə yaxın vətəndaşa sənədsiz evlərini qeydiyyatdan keçirmək imkanının yaradılmasından, hansı evlərin sənədləşdirmədən kənarda qalacağından, evlərin sənədləşdirilməsinin əmlak bazarına necə təsir edəcəyindən və Bakının mərkəzində aparılacaq söküntü işlərindən danışıb.***

***-Elnur müəllim, Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklikləri təsdiqləyib. Bu fərman 100 minə yaxın vətəndaşa sənədsiz evlərini qeydiyyatdan keçirmək imkanı yaradacaq. Bunun hansı üstünlükləri olacaq?***

-Bu dəyişikliyi amnistiya kimi dəyərləndirmək olar. Ona görə ki, 100 minə qədər əmlak az rəqəm deyil. Bu əmlakların verilmə tarixinə baxsaq, sovetlər dövründən ayrılmış torpaq sahələri var idi. Müxtəlif zavod, fabrikdə işləyən vətəndaşlara dövlət tərəfindən, işlədiyi müəssisə, kolxoz, sovxoz, daha sonra rayon icra hakimiyyəti və bağlar idarəsi tərəfindən ayrılan torpaq sahələri var. Vətəndaşlar bu torpaqlar üzərində uzun illər yaşayış evləri tikib istifadə etsələr də, onlara çıxarışlar verilə bilmirdi. Çox sayda sənədlər tələb olunurdu ki, həmin sənədlər toplusu çatışmazlığı səbəbindən vətəndaş öz əmlakına çıxarış ala bilmirdi. Fərmana əsasən, artıq sənədləşmələrdə yumşalmalar olacaq. Əlavə sənədlər tələb olunmayacaq. Bəlli bir müddət ərzində bu əmlakların çıxarışla təmin olunması prosesi baş tutacaq. Bu da vətəndaşların əmlak problemlərinin aradan qaldırılması ilə bərabər dövlət büdcəsinə torpaq və əmlak vergisindən, həmçinin, digər sahələrdən gəlirlərin gəlməsinə səbəb olacaq.

***-Siz də minlərlə əmlakın sənədləşdirilməsinin az rəqəm olmadığını qeyd etdiniz. Bu baxımdan sənədsiz evlərin qeydiyyata alınması daşınmaz əmlak bazarına necə təsir göstərəcək?***

-Evlərin sənədləşdirilməsi əmlak bazarına çox müsbət təsir göstərəcək. Uzun illərdir əmlak bazarında ciddi qiymət artımları baş verir. Qiymət artımları ona görə baş verir ki, satılan əmlakların böyük hissəsi müxtəlif növ kredit şərtləri ilə satılan əmlaklardır. Alıcılar daha çox nağd pulla deyil, kredit şərtlərlə əmlak alırlar. Bu zaman kredit şərtlərilə satıla bilən əmlakların sayı azdır. Ucuz həyət evləri çıxarışlarla təmin olunarsa, bu, əmlak bazarına on minlərlə ucuz əmlakın daxil olması deməkdir. Bununla aztəminatlı insanların birmənalı olaraq ev problemləri həll olunacaq. Bu gün həyət evlərinin qiymətinə baxsaq, təxminən 25-30 min manatdan 100 min manata qədər fərdi yaşayış evləri satılır ki, həmin həyət evlərində çıxarışların olmaması səbəbindən bu əmlaklar normal qaydada alqı-satqı, ipotek ilə satıla bilmir və s. Bu evlər kreditlə satılanda ilkin ödənişi minimal, aylıq ödənişləri də az olacaq. Bu, insanları ev problemlərini aradan qaldırmaqla bərabər kirayələrdən də qurtarmış olacaq.

***-Sənədsiz evlərin leqallaşdırılması bəzi tikililərə şamil olunmayacaq. Belə ki, bəzi sənədsiz evlər yüksək təzyiqli qaz kəmərlərinin, neft boru xətlərinin, yüksək gərginlikli elektrik xətlərinin mühafizə zonalarında yerləşir. Eyni zamanda, sənədi olmayan, dövlət və ya bələdiyyə torpaqlarının zəbt olunması yolu ilə inşa edilən evlərin də qeydiyyatı mümkün deyil və bu tikililərə hüquq tanınmayacaq. Bu cür evlərlə bağlı hansı addımlar atıla bilər?***

-Düşünürəm ki, yaxın gələcəkdə bələdiyyə və digər qurumların ayırdığı torpaqlarla bağlı da problemlər öz həllini tapacaq. İlkin mərhələdə fərman təxminən 2000-ci ilin əvvəllərinə qədər ayrılmış torpaq sahələrində tikilən evlərə şamil olunur. Yəqin ki, növbəti mərhələdə bələdiyyə və digər təyinatlı torpaqlarla da bağlı olacaq. Bəzi ərazilər var ki, oralar qadağan olunub. Qadağan olunmuş ərazilərdə inşa olunmuş yaşayış evlərinə çıxarışların verilməsi mümkünsüzdür. O zamana qədər ki, həmin əmlak üzərindən qadağan olunma statusu götürülsün. Yəni, əmlak üzərindən hər hansı yüksək gərginlikli elektrik naqilləri və yaxud digər kommunikasiya xətləri keçirsə, onların yeri dəyişdirilərsə, bu halda həmin əmlaklar çıxarışla təmin oluna bilər. Əks halda onlara çıxarışların verilməsi mümkün deyil. Ən böyük problemlərdən biri də neft ərazilərində tikilmiş fərdi yaşayış evləri ilə bağlıdır. Onlar neft buruqlarının ətrafında olduğuna görə bu tip ərazilər çıxarışla təmin oluna bilməyəcək. Bu da böyük sayda əmlakları özündə əks etdirir. Düşünürəm ki, gələcəkdə bununla bağlı da hər hansı tədbirlər planı görülə bilər. Ya həmin əmlakların sökülməsi və yaxud çıxarış verilməsə də, vətəndaşlara yaşamaq hüququ verilərsə, bu da özözlüyündə bir sənəddir. Vətəndaş həmin sənədlə ən azından qeydiyyat və digər problemlərini həll edə bilər.

***-Bakının bəzi ərazilərində söküntü işləri aparılır. Qarşıdakı dövrdə bunun daha geniş ərazini əhatə edəcəyi bildirilir. Hansı yeniliklər gözlənilir?***

-Artıq söküntü işlərinə start verilib. "Sovetski" ərazisindən başlanılıb. Uzun müddətdir Bakının bir çox ərazilərində bu proses gedir. Söküntülərə əsas səbəb paytaxtın baş plana uyğun formada qurulmasıdır. Bundan əlavə paytaxt ərazisində çox sayda qəzalı vəziyyətdə olan yaşayış evləri, binalar var ki, onlar da hər hansı formada sökülməlidir. Söküntülər iki formada aparılır. Torpaqların dövlət ehtiyacı üçün alınması var. Bu zaman parkların, yeni avtomobil yollarının çəkilməsini, kommunikasiyaların qurulmasını qeyd edə bilərik. Digər tərəfdən isə özəl tikinti şirkətləri qəzalı vəziyyətdə olan yaşayış evlərini sökərək onların yerində yeni binalar tikirlər. Bu zaman mənzil sahiblərinə kompensasiya olaraq tikəcəkləri binalardan mənzillər verirlər. Amma hər hansı əmlak dövlət tərəfindən sökülürsə onlara kompensasiya olaraq yalnız pul verilir.

***Anar Kəlbiyev***

27_27 IYUI-QARA.qxd 7/24/2025 9:24 PM Page 8



# Ustaların pulunu verməyən deputatın topdağıtmaz sərvəti

Turizmdən avtomobillərin lizinqinə, yükdaşımalardan lombardlara, mebel işindən əczaçılığa, elektron ödəmə sistemindən tərcümə işinə... - Əlibala Məhərrəmzadənin şirkəti olmayan sahə yoxdur!

***Azərbaycanda daha bir deputatın özünə və ailəsinə məxsus şirkətlərin və əmlakların siyahısı yayılıb. Söhbət Əlibala Məhərrəmzadədən gedir.***

"Unikal" xəbər verir ki, araşdırmaçı jurnalist Cavanşir Həsənli deputatın biznesinə dair diqqət çəkən məlumatlar paylaşıb. Siyahı aşağıdakı kimidir: "Shahdag Quba Truskavets Medical Sanatorium"; "Shahdag Quba Truskavets VIP Sanatorium"; "Shah Mebel" Şirkətlər Qrupu - İstehsal fabriki; "İNTERNATIONAL LEASING COMPANY" - Avtomobillərin lizinqi; "CAPITAL LEASING"; "RAHAT KREDİT" - lombard şəbəkəsi (Bakı və İmişlidə 4 filialı fəaliyyət göstərir); "TRENDPAY" - elektron ödəmə sistemi; "CASPIAN AUDIT COMPANY"; "Caspian Standart CO LLC" - Neft və qaz sənayesi üçün avadanlıqların alınması; "BAKI METAL SERVICE" Məhdud Məsuliyyətli Cəmiyyət; "MARYAM FOUNDATION"; "DIALOG FREIGHT LIMITED"- Azərbaycan-beynəlxalq dəniz yükdaşıma şirkəti; 13."DIALOG FREIGHT (UK) LIMITED" şirkəti - Londondan idarə olunur, səhmlərin 75 faizi DIALOG FREIGHT LIMITED (Azərbaycan) şirkətinə məxsusdur.



"AGROLAYN QROUP" MMC - Ötən il şirkətlə bağlı valyuta tənzimi qaydaları pozulub. Buna görə İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən protokol tərtib olunub. Yəni, ölkədən mal almaq adı ilə çıxarılan pulların qarşılığında nə mal alınıb, nə pullar geri qaytarılıb. 2021-ci il sentyabr və 17 dekabr tarixlərində Türkiyədən 200 ml-lik Sarıkız mineral suyu, meyvəli və sadə qazoz idxal edib; "UKRAYNA TICARƏT EVİ" "TACIKISTAN TICARƏT EVİ"; "PARLA PHARMA" - Əczaçılıq şirkəti; "WORLD REAL ESTATE COMPANY"; "A ƏND J HOLDİNQ" MMC (Nizamnamə kapitalı 20 510 540 manat); "GANTEK TEKNOLOJI BILISIM COZUMLERI" (Azərbaycan filialı); "ABŞERON TEKSTİL" MMC - Fabrik. Ötən il "Abşeron Tekstil" MMC-yə gömrük qaydaları əleyhinə olan (Malların və nəqliyyat vasitələrinin bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi) inzibati xəta protokolu tərtib edilib. "WORLD TRUST COMPANY" - Tərcümə şirkəti; "SHAHDAG CİNEMA PRODUCTİON " MMC; "ŞAHDAĞ İDMAN KLUBU"; "ŞAHDAĞ İÇ DIŞ TİCARET İTHALAT İHRACAT LİMİTED ŞİRKETİ" - Şirkət Türkiyədədir. 500.000 lirə nizamnamə kapitalı, qida məhsullarının topdansatışı ilə məşğuldur. 2021-ci il dekabrın 6-da Əlibala Məhərrəmzadə Türkiyə üzərindən bu şirkəti vasitəsilə digər şirkəti AGROLAYN QROUP MMC-yə ikinci əl paltaryuyan maşınları satıb; "BİSOU GÜZELLİK VE KOZMETİK SANAYİ TİCARET ANONİM ŞİRKETİ" - Türkiyədəki bu şirkət deputatın həyat yoldaşı Nərmin Məhərrəmzadənin adına 50.000 lirə nizamnamə kapitalı ilə qeydiyyatdan keçib. (2022-ci ildə Türkiyə Səhiyyə Nazirliyinin Kozmetik Denetim Dairesi Başkanlığı tərəfindən aparılan analizlərin nəticələrinə görə saxta kosmetik vasitələrin dövriyyəsinə görə cərimə olunub).

Bundan başqa, deputatın bacısı oğlu Fuad Babazadə İngiltərədə yaşayır. Ötən il onun Britaniyada iki mənzil kirayə çıxardığı haqqında elanlar var. Bunlardan biri Aberdeendə iki yataq otağı olan (Sir William Wallace Wynd, Old Aberdeen, Aberdeen AB2), digəri isə Londo da Dalling Road ünvanında yerləşən studiya tipli mənzildir.

Ə.Məhərrəmzadənin biznesi ilə bağlı "topdağıtmaz siyahı"nın yayılması son günlər onun haqqında yayılan bir məlumat fonunda xüsusi diqqət çəkir. Məsələ burasındadır ki, son günlər bəzi sosial media səhifələrində millət vəkili Əlibala Məhərrəmzadənin tikinti zamanı ustaların pulunu vermədiyi barədə iddialar yer alıb. Bildirilib ki, məsələ artıq hüquq-mühafizə orqanlarının nəzarətindədir. Deputat özü isə iddiaları təkzib edib. "Həmin ustalar mənim deyil, qardaşımın evində işləyiblər. Sosial şəbəkələrdə guya villamda işləyib pul ala bilmədiklərini yazmaqla həm ictimai rəyə təsir etmək, həm də məndən əlavə və əsassız ödəniş almaq niyyəti güdürlər" deyən Məhərrəmzadənin sözlərinə görə məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına müraciət edilib və adıçəkilən ustalar barəsində qanuni tədbirlər görülüb: "Deyilənlərin əksinə, həmin şəxslərin özləri qardaşımın evindən oğurluq etdikləri üçün polisə verilib. Hüquq-mühafizə orqanları məsələni araşdırır. Sosial mediada yayılan böhtan xarakterli məlumatların hüquqi qiymət alması üçün də müvafiq addımlar atılacaq".

Onu da deyək ki, bu ilin əvvəlində adı çəkilən deputatla bağlı başqa bir ilginc xəbər yayılmışdı. Həmin xəbərdə deyilirdi ki, Əlibala Məhərrəmzadə Qubadakı məşhur "Şahdağ Turuskavets" Sanatoriyasını borc əvəzinə təhvil verib. Bu barədə "Gununsesi.info"ya iş adamına yaxın mənbələrdən bildirilmişdi.

Xatırladaq ki, son parlament seçkilərindən öncə Əlibala Məhərrəmzadənin külli miqdarda borc içində olduğu barədə də iddialar irəli sürülmüşdü. Yeni məlumata görə isə borc problemini həll edə bilməyən deputat sonda məşhur obyektini təhvil verməli olub. Həmin obyektin 20 milyon manat dəyərində olduğu vurğulanırdı.

Həmin vaxt bu məsələ ilə bağlı yerli KİV Əlibala Məhərrəmzadənin özünün mövqeyini öyrənməyə çalışsa da, bu cəhdlər baş tutmamışdı.

Yeri gəlmişkən, biznesmen-deputat ustaların pulunun verilməməsi ilə bağlı ilkin reaksiyasında jurnalisti hədələmişdi. Belə ki, "sitat.info"nun əməkdaşı iddialara münasibət öyrənmək üçün Məhərrəmzadəyə zəng etdikdə sərt reaksiya ilə üzləşmişdi: "Siz şikayət qəbul edənsiniz? Darıxmayın, sizi başa salacaqlar".

Belə görünür, sonradan bu hədə-qorxu tonundakı reaksiyasının (üstəlik, Milli Mətbuat Gününün və milli mətbuatın yaradılmasının 150 illiyinin qeyd edildiyi bir vaxtda!) yanlış olduğunu anlayan deputat deyilənlərə normal münasibət bildirmişdi. Hərçənd, sosial şəbəkələrdə onun təkzib açıqlamasının inandırıcılığına şübhə ilə yanaşırlar, hətta Məhərrəmzadədən şikayə edən ustalara Qubada təzyiq göstərildiyi də deyilir...

***Toğrul Əliyev***



## Eldar Əzizov onu rəis təyin etdi

***Sabunçu Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinə yeni rəis təyin olunub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bu barədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov əmr imzalayıb. Əmrə əsasən, rəis vəzifəsinə Məmmədov Rəcəb Rəfael oğlu təyinat alıb.

Qeyd edək ki, R.Məmmədov bundan əvvəl Ramana bələdiyyəsinin sədri olub.

***Murad İbrahimli***

## Ali Məhkəmə Ramiz Mehdiyevin qızına "yox" dedi

***Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin qızı Kamilə Əliyevanın "Baku Oksford Məktəbi"ndə 1/2 hissə pay uğrunda mübarizəsi başa çatıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Ali Məhkəmə son qərarını açıqlayıb.

Yüksək instansiya məhkəməsi təsdiq edib ki, nə Kamilə Əliyeva, nə də məktəbin təsisçisi Mehriban Məmmədova əmlak üzərində mülkiyyət hüququna malikdir. Bu səbəbdən kassasiya şikayəti rədd edilib. "Baku Oksford Məktəbi" rəsmən müsadirə edilmiş hesab edilib.

Xatırladaq ki, "Baku Steel Company"nin keçmiş rəhbəri Rasim Məmmədov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib. Ona xüsusilə külli miqdarda mənimsəmə ittihamı ilə 13 il 9 ay həbs cəzası verilib. Məmmədovun özünün və yaxınlarının milyonlarla manat dəyərində əmlakı, o cümlədən "Baku Oksford Məktəbi" də müsadirə olunub.

## Xanhüseyn Kazımlı vəfat etdi

***Sabiq deputat Xanhüseyn Kazımlı 83 yaşında vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Report"a onun yaxınları məlumat veriblər.

Qeyd edək ki, Xanhüseyn Kazımlı Azərbaycan Sosial Rifah Partiyasının sədri olub. O, I, II, III, IV, V çağırış Milli Məclisin deputatı idi.

Mərhum "Qurd qapısı" qəbiristanlığında dəfn edilib.

## MİQ üzrə vakansiya seçimi mərhələsinə start verilir

***Müsabiqənin vakansiya seçimi mərhələsində əvvəlcə vakant yer seçmək imkanı müəllimlərin işə qəbulu üzrə müsabiqədə minimum tələbi ödəyən şəhid ailəsi üzvlərinə verilir. Namizədlər 26 iyul saat 11:00-dan 27 iyul saat 11:00-dək şəxsi səhifələrinə daxil olaraq seçim edə biləcəklər.***

"Unikal" xəbər verir ki, test imtahanı mərhələsində keçid balı toplamış namizədlər səkkiz vakant yer seçə bilərlər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi onların elektron ərizədə qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılır.

Xatırladaq ki, vakant yer tutduqdan sonra imtina edən namizədlərin növbəti vakansiya seçimlərində iştirakı təmin olunmayacaq.



# Rövşən Rüstəmov iranlı həmkarı ilə görüşdü

***"AZCON Holding" şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov İran İslam Respublikasına səfəri zamanı Astara Terminalında bu ölkənin Dəmir Yollarının rəhbəri Cabbar Əli Zakeri ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə terminalın inkişafı ilə bağlı əsas mərhələlər və icra müddətləri, terminalda aparılan tikinti işlərinin bu ilin sonuna qədər yekunlaşdırılması müzakirə olunub.

Qeyd olunub ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas elementlərindən olan Astara Terminalının (İran İslam Respublikasının ərazisində) tikintisi üzrə əsaslı işlər görülüb. Terminalın layihələndirmə işlərinin 90%-i, tikinti-quraşdırma işlərinin isə təqribən 75%-i başa çatdırılıb. 2025-ci ilin əvvəlində ADY və İran Dəmir Yolları arasında imzalanmış "Astara terminalının tikintisi və istismar müqaviləsinin icrasına dair Strateji Əməkdaşlıq Planı" terminalda nəzərdə tutulan işlərin vaxtında başa çatdırılmasına təkan verəcək.

Astara Terminalı Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların həcminin artırılmasını və əməliyyatların operativ şəkildə həyata keçirilməsini təmin edəcək.

Qeyd edək ki, Azərbaycan və İran hökumətləri arasında əldə olunmuş razılaşmaya əsasən, 2017-ci ildə Astara Terminalının inşasına start verilib. Tikintisi ADY tərəfindən aparılan terminalın ərazisi İran hökuməti tərəfindən 25 il müddətinə Azərbaycana icarəyə verilib.

Astara Terminalında 2023-cü ildə 692 min, 2024-cü ildə isə 777 min tondan çox yük aşırılıb. Terminalın tikintisi tam başa çatdıqdan sonra yükaşırma gücünün illik 3,5 milyon tona çatdırılması nəzərdə tutulur.

# "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq

***26-27 iyul tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda növbəti "Kənddən Şəhərə" həftəsonu yarmarkası baş tutacaq.***

"Unikal" xəbər verir ki, yarmarkanın məqsədi yerli fermerlərə dəstək göstərmək, onların məhsullarının satış imkanlarını artırmaq və şəhər sakinlərini sağlam, təbii kənd məhsulları ilə təmin etməkdir.

Tədbirdə 20-yə yaxın regiondan 50-yə qədər fermer iştirak edəcək. Onlar 150-yə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsulunu birbaşa satışa çıxaracaqlar.

Satışa təqdim olunan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar ərazidə fəaliyyət göstərəcək Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsulları analiz etdirə bilərlər.

Yarmarka 2 gün müddətində, saat 09:00-19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 5 ünvanında ("Gənclik" metro stansiyasının yaxınlığı) fəaliyyət göstərəcək.

Qeyd edək ki, yarmarkaya qoşulan fermerlər piştaxta, tərəzi və digər zəruri avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

# Deputata məxsus məşhur şirkətlə bağlı müəmmalı tender

## Mebel şirkəti geyim satır, geyim şirkəti təmirlə məşğul olur, su sistemləri quraşdıran asfalt döşəyir... - Azərbaycanda dövlət satınalmaları ətrafında şübhələr səngimək bilmir!

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət) "Embawood" şirkəti ilə satınalma müqaviləsi bağlayacaq. "Qaynarinfo" xəbər verir ki, qurum şirkətdən xüsusi geyim formaları almağı planlaşdırır. Satınalma müqaviləsinin maliyyə dəyəri 745 116,9 manatdır.***

"Embawood" şirkəti 2002-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 3 750 manatdır. Şirkətin qanuni təmsilçisi Abbasov Elşad İnşalla oğludur.

Mediada gedən məlumatlara görə isə "Embawood"un təsisçilərindən biri Məşhur Məmmədovdur.

Məşhur Məmmədov deputatdır. Onunla bağlı bioqrafik məlumatlarda qeyd edilir ki, 2002-2009-cu illərdə "Embawood" MMC-nin direktoru, 2009-2011-ci illərdə "Embawood İnşaat" MMC-nin direktoru, 2011-2014-cü illərdə "Embawood" MMC-nin baş direktorunun birinci müavini, 2014-2020-ci illərdə "Progress Construction" MMC-nin direktoru vəzifələrində çalışıb.

"Embawood" mebel şirkətidir. Bu barədə şirkətin rəsmi saytında da qeyd edilib. Maraqlıdır ki, "ASAN Xidmət" mebel şirkətindən geyim alır.

Qeyd edək ki, Azərbaycanda dövlət satınalamaları ilə bağlı müsabiqələrdə bu və buna bənzər absurd, qəribə, şübhə və müəmma dolu məqamlara mütəmadi rast gəlinir. Məsələn, bir neçə ay öncə geyim şirkətinin yolları təmir edəcəyi məlum olmuşdu. Belə ki, Tərtər Rayon İcra Hakimiyyəti yolların təmir olunması ilə bağlı tenderə yekun vurmuş, tenderin qalibi isə "Koneks Construction" MMC seçilmişdi. Maliyyə dəyəri 430 108,47 manat olan müsabiqəni udmuş bu şirkət barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında onun 27 noyabr 2019-cu ildə qeydiyyata alındığı, nizamnamə kapitalının isə 10 AZN olduğu aydınlaşırdı. Lakin ən maraqlı məqam o idi ki, o daha əvvəl bir qayda olaraq geyimlə bağlı tenderlərin qalibi seçilib!

Yenə aylar öncə yerli KİV xəbər vermişdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində fəaliyyət göstərən Dövlət Tibbi-Sosial Ekspertiza və Reablitasiya Agentliyi bir gündə iki tender keçirib. Həmin tenderlərdən biri qəribə şəkildə nəticələnib. Belə ki, Agentlik "Tibbi tullantıların daşınması və utilizasiyası xidmətləri"ni 18 min 602 manata "Azərfood-2007" MMC-yə həvalə edib. "Məsələnin qəribə tərəfi odur ki, "Azərfood" MMC ölkədə elə adından məlum olduğu kimi, yemək bişirmə, çatdırma işləri ilə məşğul olur. Elə rəsmi qeydlərdə də bu şirkətin qida sahəsində fəaliyyət göstərdiyi və bir neçə iri tenderin qalibi olduğu göstərilib. Belədə o, tullantı və utilizasiya işi ilə necə məşğul ola bilər?" deyə media sual edib, lakin bu suala cavab almaq mümkün olmayıb.

İki ay öncə Şəki Şəhər İcra Hakimiyyəti şəhərin yollarını əsaslı təmir etmək üçün tender keçirib. Tribunainfo.az xəbər verir ki, bu məqsədlə "Euroline" QSC ilə satınalma müqaviləsi imzalayıb. Həmin layihənin dəyəri 661 min 573 manat təşkil edəcək. Layihə çərçivəsində Şəkidəki bir sıra yollar yenidən qurulacaq.

Bildirək ki, "Euroline" QSC bundan əvvəl "Şəki şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması"nı da həyata keçirib. 2021-ci ildə bu məqsədlə şirkət 22 milyon 828 min 327 manatlıq tenderi qazanıb.

Qəribədir ki, sözügedən şirkət su, kanalizasiya və meliorasiya sistemlərinin çəkilməsi sahəsində ixtisaslaşıb. İndiyə qədər gördüyü işlər də yalnız bununla bağlı olub. İndi Şəki İcra Hakimiyyəti su sistemləri quraşdıran şirkətə asfaltı necə çəkdirəcək, o maraqlıdır...

Bu yaxınlarda isə Mingəçevir şəhər Mənzil Kommunal Təsərrüfatı və Abadlaşdırma İdarəsinin "Lider-Line" MMC ilə satınalma müqaviləsi bağlayacağı açıqlanmışdı. Bu barədə xəbərdən belə aydınlaşırdı ki, şirkət qurumun Mingəçevir şəhərində mənzil fondunun əsaslı təmir işlərinin satın alınması ilə bağlı keçirdiyi tenderin qalibi seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 449 201,93 manatdır.

Dövlət satınalmalarının vahid internet portalı üzərindən aparılan araşdırmadan aydınlaşıb ki, "Lider-Line" şirkəti 2021-ci ildən Mingəçevirdə abadlıq-təmir işləri görür. Yəni, Mingəçevir Şəhər İcra



Hakimiyyətinə tabeli qurumların abadlıq-təmir işləri ilə bağlı keçirdiyi tenderlərin qalibi yalnız bu şirkət seçilir. "Lider-Line" MMC 20 aprel 2018-ci ildə qeydiyyata alınıb. Şirkət əvvəlcə "Lider-NN" MMC adlandırılıb. Lakin qısa müddət sonra adı dəyişdirilib. Mediada gedən məlumatlardan isə "Lider-Line"nin əslində ətir satdığı aydın olur. "Ətir satan şirkətin inşaat işləri ilə bağlı tenderlərdə qalib seçilməsi bu müsabiqənin şəffaflığına şübhə salır" - yerli KİV yazıb, lakin qarşı tərəfdən bu iddialara reaksiya verilməyib.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Lakin buna gərək görmürük, elə yuxarıdakı örnəklərdən də Azərbaycanda dövlət satınalma müsabiqələrinin ədalətli, obyektiv, şəffaf keçirildiyinə dair şübhələrdə həqiqət payının yüksək olduğunu düşünmək mümkündür. Biz hələ tenderlərdəki digər müəmmalı məqamları (məsələn, vergi borcu olan şirkətlərin qalib elan edilməsini, 1-2 ay əvvəl yaradılan şirkətlərə, yaxud nizamnamə kapitalı 5, yaxud 10 manat olan MMC-lərə milyonlarla manatlıq tender verilməsi) demirik. Özü də nə sirri-Xudadırsa, belə tenderlərin qaliblərinin arxasında qeyri-rəsmi şəkildə də olsa, hansısa deputatın, nazirin, icra başçısının, digər yüksək vəzifə sahiblərinin dayandığı aydınlaşır.

Yəqin ki, əlavə şərhə ehtiyac yoxdur - güclü himayədarı olanlar üçün qanunları, o cümlədən də satınalmalarla bağlı mövcud qanunvericiliyin tələblərini kobud şəkildə pozmaq su içimi kimi asan məsələdir.

**Toğrul Əliyev**

27_27 IYUI-QARA.qxd 7/24/2025 9:24 PM Page 10



# Azərbaycanda yay istirahətinin ağlasığmaz qiymətləri

## Həftənin replikası: 3 gün dincəlmək üçün azı 1 ay çalışmaq lazım imiş... - Absurdun pik nöqtəsi!



***Məlum olduğu kimi, yay fəslinin gəlişi ilə Azərbaycanda istirahət mövsümü də başlayıb.***

Ailələr ölkənin müxtəlif bölgələrinə səfər etməklə həm təbiətdən zövq almağa, həm də gündəlik iş həyatının yorğunluğundan uzaqlaşmağa çalışırlar.

Bəs görəsən, Bakıda yaşayan dörd nəfərlik bir ailə - ata, ana və iki uşaq paytaxta nisbətən yaxın olan turistik bölgələrdən olan Qusar rayonunda üç günlük istirahət üçün nə qədər xərc çəkməlidir? Bu suala cavab tapmaq üçün “Yeni avaz” maraqlı bir hesablama aparıb. Və bu hesablama nəticəsində məlum olub ki, Azərbaycanda belə bir ailənin yay mövsümündə Bakıdan Qusara üç günlük istirahətə getməsi ailə büdcəsinə orta hesabla 700 manata başa gələ bilər.

Əvvəlcə nəqliyyat xərclərini qeyd edək. Bakıdan Qusara şəxsi avtomobillə getmək, orada turistik məkanları avtomobil ilə gəzmək və geri dönmək üçün təqribən 500-550 kilometr məsafə qət edilməlidir. Əgər avtomobil 100 kilometrə orta hesabla 9 litr yanacaq sərf edirsə və benzinin 1 litri 1 manatdırsa, yol xərci, gediş-gəliş üçün 45-50 manat olacaq. Avtobusla getmək isə hər iki istiqamət üzrə dörd nəfərlik ailəyə 60-80 manata başa gəlir.

Qusarda qalmaq üçün otellər və kirayə evlər arasında qiymətlər fərqlidir. Sadə şəraitli günlük kirayə evlər üçün 50-70 manat arası qiymətlər var. Üç gün üçün bu 150-210 manat təşkil edir. Daha komfortlu otellərdə isə bu xərclər 300-450 manata qədər yüksələ bilər.

Qida xərcləri də ümumi xərclər arasında mühüm yer tutur. Əgər ailə gün ərzində səhər yeməyini özləri hazırlasa və günün digər yeməklərini yerli restoran və ya kafelərdə yesə, gündəlik xərcləri təxminən 60-80 manat arası olacaq. Üç gün ərzində bu xərclər 180-240 manat ola bilər.

Əyləncə və gəzinti xərclərinə gəldikdə, Qusar ərazisindəki turistik yerlərə - Şahdağ turizm kompleksi, Laza şəlaləsi, dağ kəndlərinə səfərlər və s. ailə başına 60-100 manat arası əlavə xərc tələb edə bilər. Bu qiymətə məkanlara giriş biletləri və digər xidmətlər daxil ola bilər.

Əlavə olaraq bəzi xırda xərclər - qəlyanaltılar, su, yol boyu alış-veriş və suvenirlər üçün 30-50 manat əlavə xərclər nəzərdə tutulmalıdır.

Beləliklə, 4 nəfərlik ailə öz avtomobili ilə Qusara gedib orada günlük kirayə evdə qalsa, orta hesabla 465-650 manat xərcləmiş olacaq. Əgər ailə öz avtomobili ilə səfər edib orada oteldə qalsa, 3 günlük xərcləri orta hesabla 615-890 manat təşkil edəcək.

Onu da bildirək ki, bu rəqəmlər seçilən nəqliyyat növündən, qalınacaq yerin komfort səviyyəsindən və ailənin xərcləmə vərdişindən asılı olaraq dəyişə bilər. Əgər ailə daha qənaətli seçimlər etsə, bu məbləği 500 manata yaxın saxlamaq mümkündür. Lakin rahatlıq və geniş əyləncə imkanları üçün büdcə 900 manatı da keçə bilər.

Bu arada “Bizimyolinfo” haqlı olaraq belə qənaətə gəlib ki, Azərbaycanda istirahət artıq lüks sayılır. Bakıdan bir az uzaqlaşmaq istəsən, qarşına çıxan ilk sual “pulun varmı?” olur. Qəbələdə, Şəkidə, Qusarda yerləşən 3-4 ulduzlu otellərdə bir gecənin qiyməti orta statistik vətəndaşın yarım aylıq qazancına bərabərdir. Ailəvi istirahət isə bəzən bir ayın maaşını tam yeyib bitirir. Halbuki bu ölkədə rəsmi orta əməkhaqqı təxminən 900-1000 manat arasındadır. Reallıqda isə çox ailə bu məbləğin yarısını belə qazanmır. Kirayə, kommunal, bazarlıq, uşağın məktəb xərcləri və sonda “istirahət” üçün ayırmağa heç nə qalmır.

Maraqlıdır, niyə bu qədər otel tikilib, əgər əhalinin böyük hissəsi ora gedə bilmirsə? Bu sualın cavabı turizm siyasətində, qiymət tənzimlənməsində və sosial bərabərlikdə gizlənir. Otel sektorunun əksəriyyəti daha çox xarici turistlərə və ya yüksək gəlirli yerli əhaliyə xidmət edir. Orta statistik azərbaycanlı isə ya nənə kəndinə gedir, ya da evində ventilyatorla “yay istirahəti” keçirir.

Bəzi ölkələrdə hökumət daxili turizmi stimullaşdırmaq üçün tətil çekləri, vergi güzəştləri, regional turizm aksiyaları təqdim edir. Bizdə isə “əgər imkanın yoxdursa, istirahət etmə” yanaşması hakimdir. Halbuki istirahət bir lüks deyil. O, insan haqlarına daxildir. İstirahət etməyən insan daha tez qocalır, daha çox xəstələnir və daha az yaradıcılıq göstərə bilir. Əgər ölkədə daxili turizm yalnız seçilmişlərə xidmət edirsə, bu, iqtisadi bərabərsizlik və sosial ədalətsizlik deməkdir...

Və sonda: 2025-ci ilin ilk yarısı Azərbaycanda turizm sektorunun müəyyən canlanması ilə yadda qalsa da, otellərin doluluq səviyyəsi hələ də arzuolunan səviyyəyə çatmayıb!

Soruşmaq ayıb olmasın, orta statistik vətəndaşın 1 ayda gəliri 2-3 günlük gecələmək üçün tələb edilirsə, hotellərin boş qalmasından təbii nə ola bilər?!

***Sənan Mirzə***

# "Rusiya ilə əlaqəm qalmayıb, Vətən daha yaxşıdır" - Fərhad Əhmədov




***”Hazırda Azərbaycanda yaşayıram”. Bu sözləri ”Unikal”a eksklüziv açıqlama verən azərbaycanlı milyarder Fərhad Əhmədov deyib.***

O bildirib ki, Rusiyaya az gedib-gəlir: ”Ora ilə əlaqəm demək olar ki, yoxdur. Hazırda Udmurtiyada 43 milyonluq, ən böyük və birinci, müasir texnologiyaya malik ”Gapalu” kök sistemi ilə ting biznesi açıram. Vətən daha yaxşıdır. Burada yaşayıb, Azərbaycana xeyir vermək istəyirəm. Mən Göyçay və İsmayıllı rayonlarında bir milyona yaxın nar, alma, badam, pavloniya və üzüm tingləri əkmişəm.

Torpaq və vətən 60 yaşından insanı maqnit kimi çəkir. Sentyabrın 15-də 70 yaşım tamam olacaq. Sentyabrın 10-dan 15-nə kimi yetmiş min ağac əkəcəm. Biləsiniz ki, bu rayonlarda yaratdığım təsərrüfatda xeyli kəndçi işləyir, ailəsinə çörək aparır”.

# Bakıda bağçada nöqsanlar aşkarlandı - Müdir işdən çıxarıldı



***Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən 202 nömrəli körpələr evi-uşaq bağçasında monitorinq aparılıb.***

Bu barədə ”Unikal”a BŞTİ-dən məlumat verilib.Bidirilib ki, monitorinq zamanı müəssisədə bir sıra ciddi nöqsanlar (qeydiyyatdan kənar uşaqların olması, normadan artıq qida sifarişi, maliyyə-təsərrüfat qaydalarının və əmək qanunvericiliyinin kobud şəkildə pozulması) aşkar edilib.

Araşdırmanın nəticələrinə uyğun olaraq, 23 iyul 2025-ci il tarixində 202 nömrəli körpələr evi-uşaq bağçasının müdiri Paşayeva Simuzər Əlimirzə qızı ilə bağlanmış əmək müqaviləsi Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndinə əsasən ləğv edilib.

Təhsil müəssisələrində aparılan monitorinqlər davamlı xarakter daşıyır və aşkar olunmuş nöqsanlarla bağlı qanunvericiliyə uyğun tədbirlərin görülməsi təmin edilir.

Qeyd edək ki, məktəbəqədər təhsil müəssisələrində uşaqların inkişafına xidmət edən öyrədici mühitin genişləndirilməsi, təlim-tərbiyə və idarəetmə işinin keyfiyyətinin yüksəldilməsi üçün sistemli islahatlar aparılmaqdadır.

# Məhkəmələrdə işləmək istəyənlərin nəzərinə!

***Apellyasiya, ağır cinayətlər, hərbi, inzibati, kommersiya və rayon (şəhər) məhkəmələrində, ümumilikdə 72 məhkəmədə 286 vakant inzibati vəzifənin (məsləhətçi, hakimin köməkçisi, məhkəmə iclasının katibi) tutulması məqsədilə müsabiqənin müsahibə mərhələsi elan edilib.***

Ali Məhkəmədən ”Unikal”a bildirilib ki, müsabiqənin müsahibə mərhələsində aşağıdakı kateqoriyalara aid şəxslər iştirak hüququna malikdirlər:

- Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən dövlət qulluğu sertifikatı qüvvədə olan şəxslər;
- Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər;
- Dövlət orqanlarında (qurumlarında) siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 yanvar tarixli Qərarı ilə təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər.

Müsabiqənin müsahibə mərhələsində iştirak etmək istəyən namizədlər avqustun 12-si saat 18:00-dək Dövlət İmtahan Mərkəzinin internet portalında “Dövlət qulluğu üzrə müraciət Forması”nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Hüquqşünasları məhkəmələrdə vakant olan inzibati vəzifələrin tutulması üçün müsabiqələrdə iştiraka dəvət edirik.

Daha ətraflı məlumatı Dövlət İmtahan Mərkəzinin saytından əldə etmək olar.



# Gömrükdə qaydalar dəyişdi: Bu, kimlərə şamil olunacaq?

***”Azərbaycan Prezidenti Gömrük Məcəlləsində dəyişiklikləri təsdiq edib. Dəyişikliklər borcunödənilməsi sahəsində məsul subyektlərin dəqiq müəyyənləşdirilməsi məqsədi daşıyır”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Məcəlləyə əsasən, gömrük ödənişlərini ödəmək malları və nəqliyyat vasitələrini bəyan edən bəyannaməçinin vəzifəsidir:

”Bununla belə, Məcəlləyə görə gömrük borcu istənilən maraqlı şəxs tərəfindən ödənilə bilərdi. Bu isə dəqiqləşdirmənin aparılmasını zəruri etmişdi. Gömrük bəyannaməsinin təsdiqi nəticəsində bəyan edən şəxsin üzərinə gömrük ödənişlərinin ödənilməsi öhdəliyinin qoyulduğunu, bu ödənişin ödənilmədiyi təqdirdə gömrük borcunun yarandığını, habelə beynəlxalq təcrübədə də hüquqi tənzimlənmənin “istənilən maraqlı şəxs” kimi qeyri-müəyyən deyil, “məsul olan istənilən şəxs” kimi məsuliyyəti özündə ehtiva edən ifadə ilə aparıldığını nəzərə alaraq Məcəllədə müvafiq dəyişikliklərin edilməsi ehtiyac duyuldu.

Bununla, dəyişiklik gömrük borcunun istənilən maraqlı şəxs tərəfindən deyil, hesablanmış gömrük ödənişləri üzrə borclu olan şəxs tərəfindən və ya bu Məcəllədə tutulmuş üsullardan yəni, girov, bank qarantiyası, ödənilməli olan məbləğin gömrük orqanının depozit hesabına köçürülməsi, sığorta müqavilələri, üçüncü şəxsin zaminliyi, avans ödəmələr istifadə etməklə təminat verildikdə həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilməsini nəzərdə tutur”.

Deputat qeyd edib ki, yeni dəyişikliklər ilə gömrük orqanları tərəfindən hesablanmış gömrük ödənişləri, dəbbə pulu və faizlər üzrə gömrük borcunun borclu şəxs tərəfindən ödənilməsi prosesi tənzimlənəcək, şəxslərin gömrük və vergi qanunvericiliyinə riayət etməsi təmin ediləcəkdir.

”Bütövlükdə, yeni dəyişikliklər ilə başqasının gömrük borcunu ödəmək daha mümkün olmayacaq. Bu qaydalar sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə şamil olunacaq. Digər şəxslər ilə bağlı ödəniş qaydaları əvvəlki kimi saxlanılır”, - deyə V.Bayramov vurğulayıb.

# Bu marketdə vaxtı keçən məhsullar satılırmış



***Daxil olan müraciət əsasında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Lerik şəhəri, E. Qarayev küçəsi 98 ünvanında fəaliyyət göstərən və fiziki şəxs Dövlət Şirməmməd oğlu Bağırova məxsus marketdə yoxlama keçirib.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən ”Unikal”a verilən məlumata görə, yoxlama zamanı marketdə mal qonşuluğu prinsipinin pozulduğu, temperatur rejiminə əməl olunmadığı müəyyən edilib. Həmçinin yararlılıq müddəti bitmiş qida məhsulları (unlu və şəkərli qənnadı məmulatları, tum, alkoqolsuz içki) aşkarlanıb. Faktla bağlı istehlaka yararsız məhsulların qadağan olunması, dövriyyədən çıxarılması və məhv edilməsinə dair qərar qəbul olunub, fiziki şəxs barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.

# Sabiq nazirin məşhur holdinqi borc bataqlığında...

## Keçmiş icra başçısının oğlunun qanuni təmsilçisi olduğu “Synergy Group” iflasa doğru gedir

***“Synergy Group” MMC-yə daxil olan “Synergy Medical” MMC-nin 3 milyon manatdan çox vergi borcu var. Yola salmaq üzrə olduğumuz həftə yayılan məlumatda deyilir ki, “Synergy Group” vergilər naziri olmuş mərhum Fazil Məmmədovun biznes imperiyasına daxil idi.***

Şirkətin qanuni təmsilçisi isə Fazil Məmmədovun yaxın adamı, Binəqədinin icra başçısı olmuş Xaləddin İsgəndərovun oğlu Elnur İsgəndərovdur. Belə ki, E.İsgəndərov mərhum nazirin bacısı oğludur.

“Hazırda da şirkətə rəhbərliyi Elnur İsgəndərov həyata keçirir. “Synergy Group” MMC-nin nizamnamə kapitalı 50 milyon manatdır. “Synergy Group” bir müddət əvvəl vergiyə yaranmış borcunu ödəyib. Şirkətin hazırda 167 manat vergi borcu var” - “musavat.com” xəbər verib.



“Synergy Group” MMC-yə daxil olan “Synergy Medical” MMC-nin isə 3 milyon manatdan çox vergi borcu yaranıb. MMC-nin vergi borcu son illərdə artmaqda davam edir.

Nizamnamə kapitalı 10 min manat olan “Synergy Medical”ın qanuni təmsilçisi isə Gülnar Paşayevadır.

“Synergy Medical” MMC barəsində vergi hesabatını və ya onu əvəz edən arayışı vaxtında təqdim etmədiyi üçün bir neçə dəfə maliyyə sanksiyası tətbiq edilib.

İki il əvvəl yayılan məlumatlara görə, aşağıdakı şirkətlər göstərilən iştirak paylarına görə “Synergy Group”a daxildirlər:

- “Synergy Construction” MMC - inşaat, törəmə müəssisə, iştirak payı 100%, aşağıdakı müəssisədə iştirak payına malikdir:
- “Renaissance Construction Azərbaycan” MMC - inşaat, birgə müəssisə, iştirak payı 50%;
- “Azagro” MMC - kənd təsərrüfatı, törəmə müəssisə, iştirak payı 100%;
- “B.N.M.” MMC - turizm və hotelçilik, törəmə müəssisə, iştirak payı 100%;
- “Caspian Coast Winery and Vineyards” MMC - şərabçılıq, törəmə müəssisə, iştirak payı 50%, aşağıdakı müəssisədə iştirak payına malikdir:
- “Tradehouse Caspian Coast Winery and Vineyards” MMC - şərab məhsullarının satışı və paylanması, törəmə müəssisə, iştirak payı 100%;
- “Khazar Tourism” MMC - turizm və hotelçilik, törəmə müəssisə, iştirak payı 100%;
- “Caspian Agro” MMC - kənd təsərrüfatı, törəmə müəssisə, iştirak payı 50%, aşağıdakı müəssisədə iştirak payına malikdir:
- “Azagroexport” MMC - kənd təsərrüfatı, törəmə müəssisə, iştirak payı 100%;
- “Exclusive Dining” MMC - restoran, törəmə müəssisə, iştirak payı 100%;
- “Shamkir City Hotels and SPA” MMC - turizm və hotelçilik, törəmə müəssisə, iştirak payı 100%;
- “Azərbaycan Universiteti” - təhsil, törəmə müəssisə, iştirak payı 90%, aşağıdakı müəssisədə iştirak payına malikdir:
- “Unicamp” MMC - təhsil, törəmə müəssisə, iştirak payı 100%;
- “Ecolime” MMC - tikinti materiallarının istehsalı, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Foundation” - qeyri-kommersiya təşkilatı, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Development” MMC - daşınmaz əmlakın idarə olunması, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Sport” MMC - qeyri-kommersiya təşkilatı, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Technics” MMC - investisiya şirkəti, törəmə müəssisə, iştirak payı 100%, aşağıdakı müəssisədə iştirak payına malikdir:
- “Zəyəmkəndmaş” ASC - metal konstruksiyaların istehsalı, törəmə müəssisə, iştirak payı 51%;
- “Azerbaijan Global Investments” ASC - investisiya şirkəti, asılı müəssisə, iştirak payı 32%;
- “Azerbaijan Fibro Cement” MMC - tikinti materiallarının istehsalı, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Jet” MMC, - jet əməliyyat şirkəti, törəmə müəssisə, iştirak payı 100%;
- “Synergy Trading” MMC, ticarət şirkəti, törəmə müəssisə, iştirak payı 100%;
- “Caspian Development Bank” ASC, törəmə müəssisə, iştirak payı 99.91%;

“Unikal”ın əldə etdiyi məlumatlarda adları çəkilən şirkətlərdən bir çoxunun faktiki olaraq fəaliyyətsiz qaldığı, bağlandığı, ya da bağlanmaq üzrə olduğu deyilir. Ötən il İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti mayın 6-da 9 şirkətin ləğv edildiyini açıqlayıb. Bunlardan 4-ü 2015-ci ilin oktyabr ayında qeydiyyata alınıb və birbaşa və ya dolayısı ilə “Synergy Group” ASC şirkətlər qrupuna aiddir. Söhbət “Capital Vision”, “Invest Future”, “İnvest Alliance” və “İnvest Solutions” şirkətlərindən gedir. Belə ki, sözügedən şirkətlər “Synergy Group”la eyni ünvanda - Bakı şəhər, Zərifə Əliyeva küçəsi 55-də (“Yeni Həyat” biznes mərkəzi) qeydiyyata alınıb. Şirkətlərin nizamnamə kapitalı 10 min manat olub. Maraqlıdır ki, kommersiya hüquqi şəxslərin reyestrində bu şirkətlər haqqında hər hansı bir məlumat daxil edilməyib.

Belə görünür, Fazil Məmmədovun vəfat etməsinin ardından ona məxsus olmuş holdinq üçün də ağır günlər başlayıb və sabiq nazirin bacısı oğlu bu böyük biznesi idarə etməkdə çətinlik çəkir. Vəziyyət bu cür davam edərsə, “Synergy Group”un daha da kiçilməsi, hətta müflisləşməsi də mümkündür.

***Sənan Mirzə***

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 12



## 5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İctimai nəzarətin effektiv təşkili milli maraqların qorunmasında əsas faktora çevrilib!

## Zaur İbrahimli: "İctimai Şuraların fəaliyyətində əvvəllər müəyyən çatışmazlıqlar olsa da, son illərdə onların fəaliyyətində ciddi müsbətə doğru dönüş yaranıb"



***İctimai və dövlət maraqlarının müdafiəsi bir toplumun inkişafında xüsusi rol oynayır. İctima və dövlət maraqlarının qorunduğu cəmiyyətlərdə həm dövlətin maraqları təmin olunur, həm də fərdlərin rifahı nəzərə alınır. Dövlət maraqlarının və ictimai və milli maraqların təmin olunması dövlətin prioritet siyasətini təşkil edir.***

Dövlətin mənafeyinin nəzərə alındığı, eyni zamanda ictimai maraqların təmin edildiyi cəmiyyətlər hər zaman inkişaf edir, sabitlik qorunur. Bunun üçün isə dövlət nümayəndələri ilə vətəndaş cəmiyyətinin nümayəndələri arasında mütəmadi təmasların olması vacibdir. Məhz bunun üçün də Azərbaycanda 2014-cü ildə "İctimai iştirakçılıq haqqında" qanun qəbul edilib,bu qanun vasitəsilə dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında körpü salınıb. Artıq dövlətdən maliyyələşən qurumların mütləq əksəriyyətində, ictimai şuralar fəaliyyət göstərir. Hələ 2012-ci ildən Açıq Hökumətin təşviqi üçün Milli Fəaliyyət Planı da təsdiqlənib. Artıq vətəndaş cəmiyyəti qərarların qəbulunda, qanunvericilik bazalarının işlənib hazırlanmasında yaxından iştirak edirlər. Dünya təcrübəsi də göstərir ki, vətəndaş cəmiyyəti strukturlarının dövlət orqanlarının işində yaxından iştirak etməsi, verilən qərarlara təsiretmə imkanını artırır. Bu gün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əksəriyyətində ictimai şuralar fəaliyyət göstərir.

"Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimli "Unikal" qəzetinə müsahibəsində bildirib ki, ictimai şuralar məşvərətçi qurumdur. Onların vətəndaş cəmiyyəti tərəfindən seçilməsi, geniş səlahiyyətlər verilməsi, müstəqil qurum olması vacib amillərdir: "İctimai Şuraların əsas funksiyası dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarət etməkdir. İctimai şuralar dövlət orqanlarının fəaliyyətində şəffaflığı təmin etmək, ictimai nəzarət mexanizmini gücləndirmək və vətəndaş cəmiyyətinin maraqlarını təmsil etmək məqsədilə yaradılır. Bu şuralar dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarət etməklə onların hesabatlılığını artırır və şəffaflığı təmin edir. İctimai Şuraların fəaliyyətində əvvəllər müəyyən çatışmazlıqlar olsa da, son illərdə onların fəaliyyətində müsbətə doğru dönüş yaranıb. Bununla belə, bu şuraların fəaliyyətinin əlaqələndirmə mexanizminin yaradılmasına ciddi ehtiyac var. Həmçinin ictimai şuralara seçkilərlə bağlı da qanunvericiliyə dəyişikliklər vacibdir".

Z.İbrahimli deyir ki, ictimai şuraların dövlətə və cəmiyyətə fayda verməsi üçün onlar ilk nöbbədə obyektiv, şəffaf fəaliyyət göstərməli, ictimai maraqları müdafiə etməlidirlər.

Müsahibimiz dövlət başçısının da ictima şuraların fəaliyyətinə önəm verdiyini söyləyib.

Qeyd edək ki, təcrübə göstərir ki, vətəndaş cəmiyyəti strukturlarının dövlət orqanlarının işində yaxından iştirak etməsi, verilən qərarlarda təsiretmə gücünə sahib olması effektiv üsuldur və adətən uğurlu alınır. Belə olan halda vətəndaş-dövlət münasibətlərinin tənzimlənməsində şəffaflıq prinsipi təmin olunur.İctimai iştirakçılıq ictimai nəzarətin təmin edilməsinin əsas komponentidir. Azərbaycanda ilk dəfə ictimai Şuranın yaradılması təşəbbüsü 2006-cı ildə Ədliyyə Nazirliyi tərəfindən irəli sürülüb. Bu təşəbbüs tədricən qanunvericilik bazasının yaranmasına zəmin yaradıb.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, güclü ictimai nəzarətin təmin olunması ölkənin qarşısında duran məsələlərin həllində çox mühüm amildir.Ölkə başçısı yerli televiziya kanallarına müsahibəsində bu məqamlara toxunaraq "Biz cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin", - deyə bildirib. Dövlət başçısı media nümayəndələrinin bu sahədə çox böyük rolunun olduğunu diqqətə çatdırıb: "Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Mətbuat Şurası Prezidentə təşəkkür məktubu ünvanladı

***Azərbaycan Mətbuat Şurası Prezident İlham Əliyevə təşəkkür məktubu göndərib.***

"Unikal" xəbər verir ki, Şura sədri Rəşad Məcidin adından ünvanlanmış məktubda bildirilib:

"Möhtərəm cənab Prezident!

"Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli Sərəncamınız milli mətbuatımızın keçdiyi şərəfli yolun müfəssəl təsviridir. Bu mühüm dövlət sənədi, eyni zamanda, mətbuatımızın şanlı ənənələrinə, Azərbaycanda ictimai fikrin formalaşmasına, dövlətçilik ideyaları naminə səfərbərlik missiyasına böyük dəyərdir.

Siz hər zaman mediamızın müasir və müstəqil Azərbaycanın inkişafındakı, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğundakı rolunu yüksək qiymətləndirmisiniz. Gələcək üçün yol xəritəsi mahiyyəti daşıyan yubiley Sərəncamızında 44 günlük Vətən müharibəsi zamanı jurnalistlərimizin əməyinə xüsusi yanaşmağınız isə 150 ilin sevincinə qürur və fəxarət hissi qazandırır.

Siz xalqımızın Ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu mediaya dövlət dəstəyi ənənəsini yaşadırsınız. Bu dəst-xətt özünü dönməz xarakterli fundamental islahatlarda göstərir. Qətiyyətlə deyə bilərik ki, media sahəsindəki inkişaf məhz islahatyönümlü siyasətinizdən qaynaqlanır.

III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşünüz zamanı Azərbaycan mediasına yüksək dəyərinizi ifadə etməklə, gərgin əmək və axtarışlar nəticəsində əldə olunan inkişafı qiymətləndirdiniz. Media nümayəndələrinə milli mətbuatımızın 150 illik yubileyi ilə bağlı ünvanladığınız 22 iyul 2025-ci il tarixli müraciətdə isə inkişafın davamlılığına təminat verdiniz, mediamızın bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasında, müasir cəmiyyət quruculuğunda, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyinizi bildirdiniz. Həm bu əminliyiniz, həm də dünyanın yeni media düzənindəki mövcud tendensiyalar şəraitində müəyyənləşdirdiyiniz vəzifələr məsuliyyətimizi artırır.

Məsuliyyətimiz etimadınızdan qaynaqlanır. Jurnalistlərimiz Qarabağı azadlığına qovuşdurmuş, torpaqlarımızın işğalına son qoymuş müzəffər Ali Baş Komandanın əsgəri kimi fəaliyyət göstərməkdən, xalqımıza rifah və əminamanlıq, regionumuza sabitlik gətirən siyasi kursunuza sadiq olmaqdan, nəhayət etimadınızı doğrultmaqdan məmnundurlar. Hər bir qələm sahibi üçün bu məmnunluq yaradıcılıq şövqü, ruh yüksəkliyi və əzmlə çalışmaq üçün son dərəcə böyük mənəvi stimuldur.

Sevindirici haldır ki, Azərbaycan dövlətinin media siyasəti özündə təkcə konseptual mahiyyət daşıyan fəaliyyət xəttini deyil, eyni zamanda, jurnalistlərə həssas münasibəti də birləşdirir. Həssaslığın isə media nümayəndələrinin əməyinin qiymətləndirilməsi, onların dövlət təltiflərinə - fəxri adlara, orden və medallara layiq görülməsi ənənəsi var. Əvvəlki yubileylərdə olduğu kimi, milli mətbuatımızın 150 illik yubileyində də 2005-ci ildə əsasını qoyduğunuz bu ənənə özünü parlaq şəkildə göstərdi. "Media nümayəndələrinin təltif edilməsi haqqında" 21 iyul 2025-ci il tarixli Sərəncamınızla 200-dən çox həmkarımıza inanılmaz xoşbəxtlik hissi bəxş etdiniz.

Möhtərəm cənab Prezident, bütün bunlara, ümumən, mediaya, jurnalistlərə daim həssas münasibətinizə, peşəmizə yüksək dəyərinizə və qədirbilənliyinizə görə Sizə rəhbərlik etdiyim Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvləri, bütövlükdə ölkəmizin jurnalist ictimaiyyəti adından dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirir, Vətənimiz Azərbaycan naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq".

27_27 IYUI-QARA.qxd 7/24/2025 9:24 PM Page 13



# Magistraturaya plan yeri 79.81 faiz dolub



***Ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 15555 bakalavrdan 13446 nəfəri magistraturaya qəbul olub.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a bildirilib ki, qəbul olanlardan 5798 nəfəri dövlət sifarişi, 7648 nəfəri isə ödənişli əsaslarla təhsil alacaq. 9790 nəfər ali təhsil müəssisələrinin cari, 3656 nəfər isə əvvəlki illərin məzunudur.

Nəticələrə əsasən, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ayrılmış 16848 plan yerinin 79.81 faizi dolub.

# Maaşı istənilən bankdan almaq mümkün ola bilər



***Ötən gün Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımovun 13 ekspertlə görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə hüquqşünas Əkrəm Həsənov sosial şəbəkədə hesabında paylaşım edib. O bildirib ki, dünənki görüşdə pul siyasəti, manatın məzənnəsi, kart hesablarından pulların oğurlanması və s. aktual məsələlər ətrafında müzakirə aparılıb.

"Ötən görüşdə qaldırılan məsələnin aqibəti ilə maraqlandım. Söhbət işçilərin istənilən bankdan əməkhaqqı kartı ala bilməsi imkanından gedir. Taleh müəllim bildirdi ki, bu istiqmətdə iş gedir və ilin sonuna nəticə gözlənilir".

# Diabet xəstələri qidalanmaya xüsusi diqqət yetirməlidir



***Diabet xəstələrinin qidalanmasında diqqət edilməsi vacib olan əsas məqam qan şəkərini sabit saxlamaq və kəskin dəyişikliklərin qarşısını almaqdır.***

"Unikal" xəbər verir ki, bu məqsədlə sadə karbohidratlardan uzaq durmaq, liflə zəngin qidalara üstünlük vermək lazımdır.

Şəkər xəstələrinin qidalanma şərtləri:

- Karbohidrat qəbulunu nəzarətdə saxlayın;
- Doymuş yağ qəbulunu azaldın;
- Şirin içkilərdən uzaq durun;
- Duz istehlakını 2300 mq-a salın;
- Spirtli içkilər istehlak etməyin.

Unutmayın: Şəkər xəstələri fiziki aktivliklə məşğul olmalı, vaxtında və balanslı şəkildə qidalanmalıdırlar.

# Azərbaycanla Bolqarıstan HHQ-nin ekspertləri görüşdü



***2025-ci ilin ikitərəfli əməkdaşlıq planına əsasən, Azərbaycan və Bolqarıstan Hərbi Hava Qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Aviasiya vasitələrinə texniki qulluq" mövzusunda ekspert görüşü keçirilib.***

Müdafiə Nazirliyindən verilən məlumata görə, görüşdə qonaqlara aviasiya təhlükəsizliyi mövzusunda brifinq təqdim olunduqdan sonra geniş müzakirələr aparılıb, həmçinin qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Ekspert görüşü zamanı qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür tədbirlərin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb, eləcə də bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Bakıda yeni metro stansiyalarının tikintisi ilə bağlı layihələndirilmə işlərinə start verildi



***"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Bakı Metropolitenində infrastrukturun genişləndirilməsi və modernləşdirilməsi istiqamətində növbəti mühüm addım atılıb.***

"Unikal" xəbər verir ki, AZCON Holding şirkətlərindən olan "Bakı Metropoliteni" QSC ilə beynəlxalq təcrübəyə malik mühəndislik və layihələndirmə şirkəti olan Türkiyənin "Yüksel Proje" şirkəti arasında müqavilə imzalanıb və artıq öhdəliklərin icrasına start verilib.

Müqavilə çərçivəsində: Yaşıl xətt üzrə Y14-Y17 və Bənövşəyi xətt üzrə B5-B8 stansiyaları və bu stansiyalar arasında tunellərin layihələndirilməsi;

"28 May" stansiyasında Yaşıl və Qırmızı xətlərin ayrılmasının layihələndirilməsi;

"İçərişəhər" stansiyasında keçid kamerası, geri dönüş tuneli və yeraltı avtomobil dayanacağının layihələndirilməsi nəzərdə tutulur.

Müqavilənin ümumi dəyəri 35,4 milyon manat təşkil edir və satınalma prosesi "Dövlət satınalmaları haqqında" Qanuna uyğun olaraq bir mənbədən satınalma metodu ilə həyata keçirilib.Vergi və inzibati öhdəliklərin Azərbaycan hüququna uyğun şəkildə icrası, qanunvericilik çərçivəsində fəaliyyət, eyni zamanda layihənin idarəolunmasında səmərəliliyi artırmaq məqsədilə müqavilə "Yüksel Proje" şirkətinin Azərbaycanda təsis etdiyi "Yüksel Proje" MMC ilə imzalanıb.

Qeyd edək ki, dünyanın ən böyük 225 layihələndirmə şirkətinin müəyyən edildiyi ENR 2023 siyahısında 162-ci yerdə qərarlaşmış "Yüksel Proje" 45 ildən artıq beynəlxalq təcrübəyə malikdir. Şirkət bu günə qədər dünyanın 30-dan çox ölkəsində, eləcə də Türkiyənin bir sıra böyük şəhərlərində metro və dəmir yolu layihələrinin uğurla layihələndirilməsi və idarə edilməsində iştirak edib. Fəaliyyətində müasir texnologiyalara əsaslanan şirkət Tikinti İnformasiya Modelləşdirilməsi (BİM) metodologiyasından istifadə edir və "ISO 9001", "ISO 14001" və "ISO 45001" beynəlxalq sertifikatlarına sahibdir.

Yeni əməkdaşlıq çərçivəsində həyata keçiriləcək layihələr Bakı Metropoliteninin strateji inkişafına mühüm töhfə verəcək, şəhərin nəqliyyat yükünü azaldacaq, sərnişin rahatlığını əhəmiyyətli dərəcədə artıracaq.

# Əməliyyat zamanı çəkiliş aparılan "Medipoint" klinikasının rəhbərliyi cəzalandırıldı




***Bir neçə gün əvvəl "Baylarsoylar" adı ilə tanınan bloqer Arifə Məmmədova "Medipoint" adlı klinikada süni mayalanma əməliyyatına girərək həmin anları sosial şəbəkə hesabında paylaşıb. Onun bu paylaşımı ciddi müzakirələrə səbəb olub.***

Məsələ ilə bağlı Səhiyyə Nazirliyi yanında Analitik Ekspertiza Mərkəzindən "Unikal"a bildirilib ki, son günlərdə sosial şəbəkələrdə və mediada tibb işçilərinin əməliyyat zamanı canlı yayımlar aparması və kənar şəxslərin çəkiliş etməsi faktları qeydə alınıb və belə hallarla əlaqədar AEM tərəfindən mövcud qanunvericilik çərçivəsində araşdırmalar aparılır və nəticələrə uyğun olaraq xəbərdarlıq və cərimə tədbirləri görülür.

"Mediada yayılan məlumata əsasən, 23 iyul 2025-ci il tarixində Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon, Şövkət Məmmədova küçəsi 4C ünvanında yerləşən "Health Group" MMC-yə (Medipoint klinikası) məxsus tibb müəssisəsində növbədənkənar (plandankənar) yoxlama həyata keçirilib.

Yoxlama zamanı müəyyən olunub ki, 07 iyul 2025-ci il tarixində pasiyentə qadın konsultasiyası çərçivəsində həkim Vüsalə Rəhimova tərəfindən endometriyanın kəsilməsi (ketçinq) və diaqnostik histeroskopiya əməliyyatı icra edilib. Ambulator müşahidə kartında və əməliyyatların qeydiyyat jurnalında əməliyyatla bağlı məlumatlar mövcuddur. Lakin histoloji müayinənin nəticələri əməliyyat jurnalında əks olunmayıb.

Eyni zamanda yoxlama zamanı klinikada ekstrakorporal mayalanma (EKM) prosedurlarının aparılması üçün lazımi maddi-texniki bazanın olmadığı, yalnız hazırlıq mərhələsinin həyata keçirildiyi aşkar edilib. Həkim Vüsalə Rəhimova mama-ginekologiya ixtisası üzrə sertifikasiya imtahanından keçmiş olsa da, EKM ilə bağlı tələb olunan sənədlər yoxlama zamanı təqdim edilməyib.

Araşdırmanın nəticəsi olaraq, həkim Vüsalə Rəhimovaya klinikanın direktoru tərəfindən töhmət, baş həkim Aynur Cavadovaya isə rəsmi xəbərdarlıq elan olunub.

Əlavə olaraq bildiririk ki, əməliyyat zamanı həkimin və ya kənar şəxsin sosial şəbəkələrdə canlı yayım və çəkiliş aparması səhiyyə nazirinin 29 dekabr 2011-ci il tarixli əmri ilə təsdiq olunmuş "Həkimlərin etik davranış qaydaları"na və digər müvafiq normativ hüquqi aktlara ziddir.

Etik davranış qaydalarının VI bölməsinə əsasən, həkimlərin tibbi xarakterli çıxışları yalnız elmi-praktik məzmun daşımalı, reklam xarakteri daşımamalıdır. Həkim öz vəzifəsindən hüquqi və fiziki şəxslərin reklamı və maraqlarının təbliği üçün istifadə etməməlidir.

Bu cür çəkilişlər, eyni zamanda "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununun 29.1-ci maddəsinin tələblərinə zidd və İnzibati Xətalar Məcəlləsinin 428.4-cü maddəsinə uyğun olaraq:

Vəzifəli şəxslər 300-500 manat, Hüquqi şəxslər isə 1000-2000 manat məbləğində cərimə oluna bilər.

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi sosial şəbəkələr və media vasitəsilə bu kimi hallar barədə ictimaiyyəti və tibb müəssisələrini daim məlumatlandırır və xəbərdarlıq edir.

Vətəndaşlar özəl tibb müəssisələrində qanunsuz fəaliyyət və ya pozuntularla bağlı AEM-ə müraciət edə bilərlər", - AEM-dən bildirilib.

# Keçmiş məcburi köçkünlər mina təhlükəsi ilə bağlı maarifləndirilib

***Məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri onların sosial müdafiəsinin səmərəli təşkilidir. Həmçinin, Prezident İlham Əliyevin tapşırığına əsasən, doğma yurda geri dönən keçmiş məcburi köçkünlərin rahatlığının və təhlükəsizliyinin təmin edilməsi prioritet məsələlərdəndir.***



”Unikal” xəbər verir ki, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanununda keçmiş məcburi köçkünlər üçün bir sıra sosial müdafiə tədbirləri nəzərdə tutulur. Bunlardan biri də sosial müdafiəyə ehtiyacı olan məcburi köçkünlərin yararlandığı, dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vahid aylıq müavinətdir.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən doğma yurduna qayıtmağa hazırlaşan və işğaldan azad edilmiş ərazilərə yeni salınmış yaşayış məntəqələrində məskunlaşan əhali arasında aparılan məlumatlandırma, təbliğat-izahat və maarifləndirmə işləri çərçivəsində onlara sosial müdafiə tədbirləri, o cümlədən vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan başaçatma müddətləri, müddətin axımı, habelə bunun qanuniliyi və zəruriliyi məsələləridə ətraflı izah edilir.

Dövlət Komitəsinin Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, maarifləndirmə və təbliğat işləri çərçivəsində mina təhlükəsi ilə bağlı hazırladığı videoçarx insanları ayıq-sayıq olmağa, xəbərdarlıq nişanlarının tələblərinə əməl etməyə çağırır. İşğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı hərbi sursatlarla bağlı təhlükənin aradan qaldırılması üçün ərazilərdə müvafiq təmizləmə işləri aparılmaqla yanaşı, əhalinin maarifləndirilməsi də həyata keçirilir.

Bununla əlaqədar olaraq, növbəti tədbir Ağdərə rayonunun Həsənriz kəndinə köçürülən 34 ailə arasında keçirilib. Dövlət Komitəsində keçirilən tədbirdə məcburi köçkünlərin sosial müdafiəsi məsələləri və vahid aylıq müavinətin daimi yaşayış yerinə geri qayıtmış şəxslərin üç il müddəti başa çatdıqdan sonra dayandırılacağı və mina təhlükəsi haqqında hazırlanmış videoçarxlar məcburi köçkünlər üçün nümayiş etdirilib. Qeyd edilən video çarxlar, mediada mütəmadi olaraq yayımlanır. Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Dövlət Komitəsi tədbirlər planına uyğun olaraq aidiyyəti şöbə, yerli nümayəndəliklər və Mənzil-Kommunal İstismar Sahələri tərəfindən məcburi köçkünlərlə mütəmadi olaraq qanunvericiliyin tələbləri barədə maarifləndirici görüşlər keçirilir, sosial müdafiə tədbirlərinə dair məlumat kitabçaları və broşürlər hazırlanaraq məcburi köçkünlərə təqdim olunur, videoçarxlar çəkilir.

# "Pilot Residence" MTK sakinlərinin fəryadı: illərdir çözülməyən problem

***Bakı şəhəri, Səbail rayonu, Rostropoviçlər küçəsi, ev 9-11 ilə Nizami küçəsi, ev 4 ünvanlarının kəsişməsində yerləşən ”Pilot Residence” yaşayış kompleksində illərdir davam edən problemlər sakinləri təngə gətirib. Kooperativin fəaliyyəti barədə bunadək mediada kifayət qədər qalmaqallı məlumatlar yayımlanıb.***

Sakinlər bildirirlər ki, bina rəsmi istifadəyə verilsə də, əsasən tamamlanmamış (həyətin bərpası, kompleksin hasara alınması və s.) vəziyyətdə təqdim olunub. Keyfiyyətsiz tikinti, zəif izolyasiya, nazik divarlar və istismar üçün yararsız şərait burada yaşayan insanlar üçün ciddi gündəlik çətinliklər yaradıb. Keyfiyyətsiz iş, məsuliyyətsiz yanaşma o səviyyəyə çatıb ki, binanın fasad hissəsi də tökülmək üzrədir. Sakinlərin sözlərinə görə, binada nə lazımi xidmət göstərilir, nə də tikinti qüsurlarının aradan qaldırılması istiqamətində konkret addımlar atılır.

İddialara əsasən, binanın inşası zamanı müxtəlif qanunsuz və şəffaf olmayan proseslər həyata keçirilib. Bu gün həmin qanunsuzluqların nəticəsi kimi binada texniki və təhlükəsizlik baxımından ciddi fəsadlar üzə çıxmaqdadır. Bu azmış kimi, MTK qanunsuz olaraq, MMC yaratmaq və daim binaya rəhbərlik etmək istəyir.



Sakinlər illərdir öz haqlarını tələb etsələr də, hələ də istəkləri tam qarşılanmayıb. Bugünədək məsələ ilə əlaqədar məktub və müraciətlər rəsmi şəkildə aidiyyəti qurumlara təqdim edilib. Hazırda iş məhkəmə prosesi üzrə davam edir. Məlumata görə, Ali Məhkəmədən geri qaytarılmış işə yenidən Apellyasiya Məhkəməsində baxılacaq. Növbəti iclasın avqustun 5-də keçirilməsi nəzərdə tutulur və sakinlər ümid edirlər ki, bu dəfə onların tələbləri təmin olunacaq.

Kompleksin 30 ailəsinin imzası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Məhkəmə Hüquq Şurasına, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə, Prezident Administrasiyasına və s. əsas subyektlərə şikayət məktubu ünvanlanıb. Sakinlər binanın tikintisinin 2017-ci ildə təsdiqlənmiş layihəyə uyğun tamamlanmadığını bildirərək MTK-nın fəaliyyətsizliyinə və biganəliyinə etiraz edir, yuxarıda qeyd olunan nöqsanların, vacib məsələlərin təxirəsalınmaz şəkildə həllini gözləyirlər. Yaşayışçılar təhlükəsiz və insana layiq şəraitdə yaşamaq hüquqlarının bərpa olunmasını tələb edirlər. Həmçinin vurğulayırlar ki, məhkəmə iddialarını və dövlət qurumlarına ünvanladıqları şikayətlərini qeyd olunan tələbləri təmin olunduğu təqdirdə geri götürəcəklər.

# 2025-ci ildə Samux rayonunda 46688,5 ton taxıl yığılmışdır

***Rayonun təsərrüfatlarında 10822,4 hektar taxıl sahəsində biçin aparılmış, həmin sahələrdən 46688,5 ton məhsul yığılmışdır.***



Məhsuldarlıq hər hektardan 43,1 sentner olmuşdur. Biçilən sahələrin 5292,6 hektarı buğda, 5529,8 hektaır arpa sahələri olmuşdur. Biçilmiş sahələrdən 25818,7 ton buğda, 20869,8 ton arpa yığılmışdır. Buğdanın məhsuldarlığı hər hektardan 48,8 sentner, arpanın məhsuldarlığı isə 37,7 sentner təşkil etmişdir.

Rayonunda taxıl biçini başa çatmışdır.

***Samux Rayon Statistika İdarəsi***

# 2025-ci ilin 6 ayında Goranboy rayonu üzrə yazlıq bitkilərin əkin sahəsi statistikası

***Rayonda yaz-tarla işləri başa çatmışdır. 2025-ci il iyul ayının 1-nə kimi 7995,5 hektar sahədə yazlıq bitkilər, o cümlədən 1275,8 hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 771,5 hektarı dən üçün qarğıdalı), 313,0 hektar sahədə kartof, 1082,7 hektar sahədə tərəvəz, 60,5 hektar sahədə bostan bitkiləri, 1983,3 hektar sahədə pambıq, 2354,3 hektar sahədə dən üçün günəbaxan, 57,9 hektar sahədə şəkər çuğunduru, 122,0 hektar sahədə tütün, 731,0 hektar sahədə çoxillik otlar, 15,0 hektar sahədə birillik otlar əkilmişdir.***

**Qrafik 1**

**Yazlıq bitkilərin əkin sahəsinin quruluşu**




**Cədvəl 1**

**Yazlıq bitkilərin əkini, hektar**

| | Yanvar-iyun | | 2025-ci ilin yanvar-iyun ayları 2024-cü ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | 2025 | 2024 | |
| **Yaz əkininin əvvəlindən əkilmişdir** | **7995,5** | **7035,5** | **113,6** |
| Dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) | 504,3 | 322,6 | 156,3 |
| *onlardan:* buğda | 44,0 | 38,6 | 114,0 |
| vələmir | 32,3 | 25,0 | 129,2 |
| Dən üçün qarğıdalı | 771,5 | 550,5 | 140,1 |
| Dən üçün günəbaxan | 2354,3 | 2349,8 | 100,2 |
| Şəkər çuğunduru (emal üçün) | 57,9 | 89,3 | 64,8 |
| Pambıq | 1983,3 | 1450,4 | 136,7 |
| Tütün | 122,0 | 8,0 | 15,2 d. |
| Kartof | 313,0 | 279,8 | 111,9 |
| Tərəvəz | 1082,7 | 1082,0 | 100,1 |
| Bostan bitkiləri | 60,5 | 72,6 | 83,3 |
| Birillik otlar | 15,0 | 36,5 | 41,1 |
| Çoxillik otlar | 731,0 | 789,0 | 92,6 |

2025-ci il iyul ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 52131,0 ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 28,2 faiz az dənli və dənli paxlalı bitkilər, 6119,2 ton (4,2 faiz çox) tərəvəz, 932,0 ton (9,1 faiz az) kartof, 7995,9 ton (2,9 faiz çox) meyvə və giləmeyvə yığılmışdır.

***Goranboy Rayon Statistika İdarəsi***

# Tələbə krediti almaq istəyənlərin nəzərinə!

***Təhsil Tələbə Krediti Fondu 2025-2026-cı tədris ilinin payız semestri üzrə müraciətlərin qəbuluna başlayıb.***

“Unikal” Təhsil Tələbə Krediti Fonduna istinadən xəbər verir ki, 2025-2026-tədris ili üzrə ali təhsil pilləsinin magistratura səviyyəsinə qəbul olunmuş, həmçinin ali, orta ixtisas və peşə təhsili müəssisələrində 2-ci və daha yuxarı kurslarda təhsil alan tələbələr bu gündən e-ttkf.edu.az portalına daxil olaraq təhsil tələbə kreditindən yararlana bilərlər.

Magistraturaya qəbul olmuş tələbələr portal.edu.az vasitəsilə tələbə qeydiyyatı prosesini həyata keçirən zaman paralel olaraq təhsil tələbə kreditinə də müraciət edə bilərlər.

Təhsil tələbə kreditləri respublikamızın ərazisində fəaliyyət go?stərən təhsil müəssisələrinin ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas təhsili pilləsində və peşə təhsili pilləsinin texniki peşə və yüksək texniki peşə təhsili səviyyəsində əyani və ödənişli əsaslarla təhsil alan tələbələr, əvvəlki semestrlər üzrə akademik borcu olmayan, Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub.

Statistikaya əsasən, 2024-2025-ci tədris ilində 21 minə yaxın təhsil tələbə krediti müqaviləsi rəsmiləşdirilib.

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 15



# Türkiyə - Suriya hərbi əməkdaşlıq sazişi imzalanacaq

***Türkiyə və Suriya hərbi əməkdaşlıq sazişi imzalamağa hazırlaşır.***

”Unikal” xəbər verir ki, bu barədə Türkiyənin hökumətyönlü “Hürriyyət” qəzeti yazıb.

Nəşr bu sənədin nə vaxt imzalanacağını dəqiqləşdirməyib, lakin Ankara və Dəməşqin İsrail tərəfindən Suriyanın təhlükəsizliyinə təhdidlər fonunda bu mühüm addımı atdığını qeyd edib.

*Ağarza Elçinoğlu*

# Kremldən Zəngəzur dəhlizi ilə bağlı açıqlama

***”Zəngəzur dəhlizi ətrafında vəziyyət Ermənistan və Azərbaycanın suveren məsələsidir”.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlayıb.

Diplomatın sözlərinə görə, Rusiya ölkələr arasında sülhün tezliklə bərqərar olmasının tərəfdarıdır: ”Rusiya Ermənistan və Azərbaycan arasında aparılan danışıqları hər cür dəstəkləyir”.

*Ağarza Elçinoğlu*

# Əfqanıstanda qadınlar kütləvi həbs edilir - KİV



***Kabildə gənc qadınların son kütləvi həbsləri Əfqanıstanın ali lideri Haybətullah Axundzadənin göstərişi ilə həyata keçirilib.***

”Unikal” xəbər verir ki, bu barədə ”Afghanistan İnternational” nəşri məlumat dərc edib.

”Kabildə bu yaxınlarda gənc qadın və qızların kütləvi həbsləri Əfqanıstanın ali liderinin birbaşa göstərişi ilə həyata keçirilib. Həbs kampaniyasına Qəndəhar əyalətinin qubernatoru və Axundzadənin yaxın adamı Molla Şirin nəzarət edir”, - KİV qeyd edib.

Bildirilir ki, Şirin təxminən 10 gün əvvəl Talibanın əxlaq kodeksinin icrasına nəzarət etmək üçün Kabilə gəlib. Onun gəlişindən qısa müddət sonra Əxlaqın Təbliği və Müavinlərin Qarşısının Alınması Nazirliyi, Daxili İşlər Nazirliyi və Axundzadənin nümayəndələrinin iştirakı ilə yüksək səviyyəli görüş keçirilib. İclasda Əfqanıstan paytaxtında qadınlar üçün ciddi geyim qaydaları tətbiq edilməsi müzakirə olunub.

*Gülayə Mecid*

# Lukaşenkonun bu ölkəyə girişi qadağan edildi

***Estoniya Belarus prezidenti Aleksandr Lukaşenko və daha 272 belarusluya ölkəyə girişinə qeyri-müəyyən qadağa qoyub.***

”Unikal” xəbər verir ki, bu barədə Estoniyanın xarici işlər naziri Marqus Tsahkna məlumat yayıb.

Sanksiya siyahısına Lukaşenkodan başqa Belarusun yüksək rütbəli məmurları, hakimlər və təhlükəsizlik işçiləri də daxildir.

*Gülayə Mecid*

# "Putinə təyyarə qəzası ilə bağlı məlumat verilib" - Peskov

***Rusiya prezidenti Vladimir Putin Amur vilayətində An-24 təyyarəsinin qəzaya uğraması ilə bağlı məlumatlandırılıb.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov məlumat yayıb.

Xatırladaq ki, Amur vilayətində itən An-24 təyyarəsinin qəzaya uğrayıb.

# "Zəngəzur yolu Orta Dəhlizə qoşulmalıdır" - Mərkəz direktoru



***Zəngəzur yolu ”dəhliz” statusu olmadan Orta Dəhliz meqalayihəsinə qoşulmalıdır.***

”Unikal” xəbər verir ki, bu barədə “Bir Kəmər Bir Yol” İxrac Mərkəzinin direktoru Ruzanna Malxasyan açıqlayıb.

”Zəngəzur dəhlizi Zəngəzurdan keçən və Türkiyəni Azərbaycanla birləşdirə biləcək bir yoldur. Azərbaycan və Türkiyə bu yolu yalnız bir səbəbdən dəhliz adlandırmaq istəyir: Dəhliz termini qonşu ölkələrin yollarını birləşdirən və bir qurum tərəfindən idarə olunan iqtisadi kommunikasiya yaradan anlayışdır. Dəhliz dövlətin özünə məxsus yol deyil, ona görə də Zəngəzur yolunu dəhlizə çevirməklə oranı ərazi kimi sıradan çıxarıb, idarəsini başqa quruma verirlər.

Rusiya-Ukrayna münaqişəsi fonunda Azərbaycan Orta Dəhlizdə öz rolunu gücləndirərək, Azərbaycanın Aİ-nin tam dəstəyinə malik olduğu Qazaxıstan-Azərbaycan-Gürcüstan nəqliyyat marşrutuna təkan verib. 2022-ci ilin noyabrında Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə arasında Orta Dəhlizdən keçən yol xəritəsi haqqında saziş imzalanıb. 2023-cü ilin iyununda Azərbaycan, Gürcüstan və Qazaxıstan marşrutun bu hissəsi üçün vahid logistik operator təyin etmək qərarına gəlib. Bu qərara Avropa Bankı, Avropa İttifaqı, Asiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər tərəfdaşlar tərəfindən bu marşrutun inkişafı, investisiya qoyuluşu və istismarı üçün dərhal cavab verildi. Bu xəritə Aktau limanından başlayır, Bakıya, Ələt limanına, oradan da Gürcüstana çatır. Gürcüstandan İtaliyaya Tbilisi-Ceyhan neft kəməri ilə Avropaya neft ixracını davam etdirir. Beləliklə, Rusiyanın Azərbaycan Qazaxıstandan Avropaya neft nəql etmək üçün Xəzər dənizi yollarından istifadə etməyə başladı”, - deyə o qeyd edib.

*Ağarza Elçinoğlu*

# Trampı Moskva ilə qarşıdurmaya kim sövq edir?

***ABŞ prezidenti Donald Tramp Rusiyaya münasibətini sərtləşdirir və dövlət katibi Marko Rubio bu dönüşdə əsas rol oynayıb.***



”Unikal” xəbər verir ki, bu barədə ”Financial Times” (FT) nəşri yazıb.

Nəşr Rubionu Vaşinqtonun yeni xarici siyasət kursunun əsas memarlarından biri adlandırır. Məlumata görə, Rubio həm prezidentə, həm də Ağ Evin əməkdaşlarına gündəlik olaraq məsləhətlər verir. Onun keçmiş köməkçisi FT-yə bildirib ki, dövlət katibinin məsləhəti Trampın xarici siyasətindəki dəyişikliyin açarı olub.

”O, ABŞ-nin Çin, İran, Venesuela və Rusiyaya qarşı sərt xəttinin əsas ideoloqu olub. Onun çevrəsindəki mənbələr iddia edir ki, məhz Rubio hər gün Ağ Evin xarici siyasət gündəmini formalaşdırır, prezidentin mövqeyinə birbaşa təsir göstərir”,- nəşr yazıb.

*Gülayə Mecid*

# "Qərb Bakı - İrəvan barışıq prosesini öz tərəfinə çəkmək istəyir" - Zaxarova

***Qərb Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesini regional kontekstdən çıxararaq öz maraqlarına tabe etdirməyə çalışır.***

”Unikal” xəbər verir ki, bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

Diplomat qeyd edib ki, Ermənistan və Azərbaycan regional tərəfdaşlar - Rusiya, İran və Türkiyənin dəstəyi ilə konstruktiv və qarşılıqlı məqbul həll yollarına can atırlar: ”Qərb oyunçuları bu prosesə müdaxilə edir və region ölkələrinin maraqlarına məhəl qoymurlar.

Brüsselin daha bir xeyirxah təşəbbüsü pərdəsi altında sırf siyasi maraqlar gizlənir. Qərb növbəti dəfə siyasi uğurlarını bəyan etmək üçün Bakı ilə İrəvan arasında barışıq prosesini öz tərəfinə çəkmək niyyətindədir. Qərbin hərəkətləri regionda təhlükəsizlik balansının pozulmasına və regional dövlətin özünü təmin etmə prinsipinin pozulmasına gətirib çıxara bilər”.

*Ağarza Elçinoğlu*

# Ermani nazirdən yeni Konstitusiya açıqlaması

***”Konstitusiyaya dəyişiklik və ya yeni Konstitusiyanın qəbul edilməsinin seçkilərdən əvvəl referendum yolu ilə baş tutacağı açıqlanmayıb”.***

”Unikal” xəbər verir ki, bunu Ermənistan Respublikasının ədliyyə naziri Srbuhi Qalyan deyib.

”Biz hər şeyi etməli və Konstitusiyanın yeni mətninin 2026-cı il seçkilərinə qədər hazır olması üçün çalışmalıyıq”, - deyə nazir bildirib.

O, konstitusiya dəyişikliklərini hər hansı xarici faktorla əlaqələndirmək cəhdlərini yanlış hesab edərək deyib: ”Bu, bizim daxili məsələmizdir, xalqımız yeni Konstitusiyaya sahib olmaq istəyib-istəməyəcəyinə qərar verəcək”.

*Ağarza Elçinoğlu*

27_27 IYUl-QARA.qxd 7/24/2025 9:24 PM Page 16



# Ekvadorlu müdafiəçi "Milan"a keçdi

***Ekvadorlu müdafiəçi Pervis Estupinyan İngiltərənin "Brayton" klubundan İtaliya təmsilçisi "Milan"a keçib.***




"Unikal" xəbər verir ki, bu barədə "Milan"ın rəsmi saytı məlumat yayıb.

Ekvadorlu futbolçu ilə 2030-cu ilə qədər müqavilə imzalanıb.

2022-ci ilin yayında "Brayton"a keçən Estupinyan 104 oyunda 5 qol vurub. Ekvador millisinin heyətində isə 48 matçda 4 qolla yadda qalıb.

# "Əlimizdən gələni edəcəyik ki, "Hayduk"a qalib gələk" - Rövlan Muradov

***"Bilirdik hansı rəqibə qarşı oynayırıq. "Hayduk" Xorvatiyanın ən köklü klublarından biridir. Rəqibi yaxşı analiz etmişdik, boşluqlarını bilirdik. Əfsuslar olsun ki, sadə bir vəziyyətdə qapımızda qol gördük. Sonra nə qədər çalışsaq da, ikinci qolu vurmaq mümkün olmadı".***



QOL.az xəbər verir ki, bu sözləri "Zirə"nin yarımmüdafiəçisi Rövlan Muradov UEFA Konfrans Liqasının ikinci təsnifat mərhələsinin ilk oyunu çərçivəsində Xorvatiya "Hayduk"una qarşı keçirilən matç (1:1) barədə danışarkən deyib.

O, Bakıdakı heç-heçədən sonra mərhələ adlamaq şanslarının bərabər olduğunu bildirib: "Cavab oyununa qələbə üçün çıxacağıq. Əlimizdən gələni edəcəyik ki, qalib gələk. "Hayduk" nə qədər güclü olsa da, səfər görüşündə layiqli mübarizə aparmaq üçün çalışacağıq".

Matçın sonlarında Muradovun zərbəsi qapı dirəyinə tuş gəldi. 27 yaşlı futbolçu həmin epizodu belə dəyərləndirib: "Zərbəni vuranda ani qərar qəbul etdim. Bunu məşqlərdə də edirəm. Qapını gördüm və zərbə endirdim. Təəssüf ki, bəxt bizdən üz döndərdi və top dirəyə tuş gəldi".

"Zirə"nin heyətində ilk rəsmi matçına çıxan yarımmüdafiəçi bildirib ki, komandaya asanlıqla uyğunlaşır: "Kollektivdəki futbolçuların bəziləri ilə daha əvvəl bir yerdə oynamışam. Rəşad Sadıqovu da çoxdan tanıyıram. 2018-ci ildə məni o, "Qarabağ"a dəvət etmişdi. Çox istəyirəm ki, daha tez adaptasiya olum və hər bir matçda komandama bacardığım qədər, hətta bacardığımdan da daha çox kömək edim".

# "Səhv etməkdən qorxurduq" - "Şelburn"un baş məşqçisi

***İrlandiyanın "Şelburn" klubunun baş məşqçisi Coy O'Brayen Çempionlar Liqasının 2-ci təsnifat mərhələsinin ilk oyununda "Qarabağ"a Dublində uduzduqları məğlubiyyəti (0:3) şərh edib.***

"Qafqazinfo" "The Irish Sun"a istinadən xəbər verir ki, 39 yaşlı məşqçi Ağdam klubuna məğlubiyyətin səbəblərindən danışarkən, ilk hissədə səhv etməkdən qorxduqlarını deyib:

"Hadisələrin yekununa görə məyus oldum. Hansısa məqamda hər şey nəzarətimizdən çıxdı. Düşünürəm ki, ikinci hissədə daha yaxşı idik, amma hesabı bərabərləşdirə bilmədik. "Qarabağ"ın hansı sürətlə oynayacağını bilirdik. Çünki "Qarabağ" bu səviyyədə oynamağa öyrəşib. Onların sürəti, ötürmələri - hər şey ən yüksək səviyyədədir. Bununla belə, ilk hissədə çox hörmətlə yanaşdıq. Mənə elə gəldi ki, səhv etməkdən qorxurduq. Fasilədə sxemi dəyişdik, öndə daha fəal oynamağa başladıq, bir neçə şans yaratdıq. Düşünürdüm ki, geridönüş etmək üçün yaxşı vəziyyətdəyik, lakin buna nail olmadıq. Bunun əvəzinə arxada boşluq buraxdıq ki, bu səviyyədə edə bilməzsiniz".



# Cüdoçumuz erməni rəqibinə ipponla qalib gəldi



***Azərbaycan cüdoçusu Məhəmməd Ağakişiyev (73 kq) Makedoniyanın paytaxtı Skopyedə keçirilən XVIII Avropa Gənclər Yay Olimpiya Festivalında (EYOF) Ermənistandan olan rəqibinə ipponla qalib gəlib.***

Bu barədə Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən məlumat verilib.Mübarizəyə 1/8 finaldan başlayan cüdoçumuz Tiqran Saruxanyanla qarşılaşıb. Rəqibinə ipponla qalib gələn M.Ağakişiyev 1/4 finala vəsiqə qazanıb. Qeyd edək ki, daha əvvəl Amin Mehdiyev (81 kq) də 1/4 finala vəsiqə əldə edib.

# "Səbail" növbəti transferini reallaşdırdı

***Azərbaycanın I Liqa təmsilçisi "Səbail" növbəti transferini reallaşdırıb.***



Bu barədə "Unikal"a klubun mətbuat xidmətindən məlumat verilib. Ötən mövsümü "Karvan"da keçirmiş Emil Qasımovla "1+1" illik müqavilə imzalanıb.

Qeyd edək ki, 25 yaşlı hücumçu ötən mövsüm I Liqada 15 qolla ən məhsuldar ikinci futbolçu olub.

# İspaniya millisi finalda İngiltərə ilə qarşılaşacaq



***Futbol üzrə qadınlar arasında Avropa çempionatının son finalçısı bəlli olub.***

"Unikal" xəbər verir ki, yarımfinalda Almaniyanı əlavə vaxta məğlub edən (1:0) İspaniya seçməsi finala adını yazdırıb. Onların həlledici oyundakı rəqibi İngiltərə yığması olacaq. Final iyulun 27-də təşkil olunacaq.

Qeyd edək ki, turniri ən çox qazanan komanda Almaniya millisidir - 8 dəfə.

# Firminonun yeni klubu rəsmən açıqlandı

***"Liverpul"un və Braziliya millisinin sabiq futbolçusu Roberto Firminonun yeni klubu bəlli olub.***



33 yaşlı hücumçu karyerasını Qətərdə davam etdirəcək. O, "Əl Sədd"ə keçib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Firmino ilə 2 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Roberto Firmino son olaraq "Əl Əhli"də çıxış edib. O, 2015-2023-cü illərdə "Liverpul"un formasını geyinib.

# Azərbaycanlı futbolçu Qırğızıstan klubunda



***Ötən mövsümü "Turan Tovuz"da keçirən Orxan Əliyevin yeni komandası bəlli olub.***

"Unikal" xəbər verir ki, 29 yaşlı hücumçu karyerasını Qırğızıstanda davam etdirəcək. Futbolçu adıçəkilən ölkənin "Uzgen" klubu ilə müqavilə imzalayıb.

# "Neftçi" basketbol klubunun yeni baş məşqçisi müəyyənləşib

***"Neftçi" basketbol klubunun yeni baş məşqçisi müəyyənləşib.***



"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, komanda Vitali Stepanovskiyə tapşırılıb. Ukraynalı mütəxəssis əvvəllər "Ximik" (Ukrayna), "Krayova" (Ruminiya) komandalarını və ölkəsinin millisini çalışdırıb. Onun sonuncu iş yeri isə Estoniyanın "Parnu" klubu olub.

Qeyd edək ki, V.Stepanovskinin köməkçiləri həmyerlisi Oleq Qonçarov və gürcüstanlı Daviti Çivçivadze olacaq.